

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 108 (7363) / Çərşənbə, 19 iyun 2019-cu il


# Sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlandı



Prezident İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncamlar imzalayıb

ƏTRAFLI 2-5-Cİ SƏHİFƏLƏRDƏ



## Mehriban Əliyeva: Təhsil hər bir millətin tərəqqisinin, parlaq gələcəyinin əsasını təşkil edir

⇨ Baxı: səh. 7

⇧ Bax: səh. 6

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb

## SOCAR prezidenti "Honeywell PMT" şirkətinin prezidenti ilə görüşüb



⇨ Bax: səh. 7

## Azərbaycan nümayəndə heyəti Vyanada Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb



⇨ Bax: səh. 8

⇧ Bax: səh. 7



*Əli Əhmədov:*

## Azərbaycanda təhsillə bağlı problemlər öz həllini tapıb, savadsızlıq aradan qaldırılıb

⇧ Bax: səh. 9

## Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub




9 Akademik Xoşbəxt Yusifzadənin biblioqrafiyası çapdan çıxıb

13 "Bursagaz" və "Kayserigaz"ın "SOCAR Türkiyə"yə təhvil-təslimi başa çatdı

24 Tər ifrazı orqanizmi hansı xəstəliklərdən azad edir?

# Sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlandı

**Dövlətimizin başçısı İlham Əliyev bu ilin fevralında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bu əminliyi ifadə etmişdir ki, 2019-cu il sosial islahatlar ili kimi tarixə yazılacaq: "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır."**



Ölkə başçısının dərin elmi əsaslara və müasir çağırışlara söykənən uğurlu inkişaf starategiyasının sayəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Son illər aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb, vətəndaşların maddi rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib.

Dövlət başçısının həyata keçirdiyi uğurlu sosial-iqtisadi inkişaf strategiyasının mühüm nailiyyətlərindən biri kimi son 15 ildə ölkəmizdə yoxsulluq səviyyəsi 5 faizə enib ki, bu da qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır.

Dövlət başçısının 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə martın 1-dən ölkəmizdə minimum əməkhaqqı 38,4 faiz artırılaraq 180 manata və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında qəbul olunan qanunla əmək pensiyasının minimum məbləği 38,5 faiz artırılaraq 160 manata çatdırılıb. Hər iki artım respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə imkan verən mühüm addımlardır. Əməkhaqqı artımı 600 min, pensiya artımı isə 233 min nəfəri əhatə edib.

Ümumiyyətlə, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial siyasət nəticəsində son 15 ildə orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılır. Ölkə başçısının ötən il keçirilən prezident seçkilərindəki qələbəsindən sonra imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi haqqında olması bunu bir daha təsdiq edir.

Ötən il aprelin 11-də keçirilən prezident seçkilərində xalqın yekdil səsi ilə yenidən dövlət başçısı seçilən cənab İlham Əliyevin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanına əsasən şəhid hərbi qulluqçuların vərəsələri birdəfəlik ödəmələrlə təmin edilir. İlk olaraq 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub. Bu il yanvarın 28-də dövlət başçısının imzaladığı daha bir Fərmanla birdəfəlik ödəmələrin verilməsi 2725 nəfər çox olmaqla 12 min 268 şəhidin vərəsələrini əhatə edib və bunun üçün ümumilikdə 135 milyon manat vəsait ayrılıb. İndiyə qədər 6338 şəhidin 9276 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq.

Dövlət başçısının "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" 2019-cu il 30 yanvar tarixli Fərmanı ölkəmizdə şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və onların rifah halının yaxşılaşdırılması sahəsində uğurlu sosial siyasətinin əsas istiqamətlərindən biridir. Fərmana əsasən, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının artırılması məqsədilə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilib. Eləcə də müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər də bu il aprelin 1-dən 100 faizədək artırılıb.

Ötən il şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə nəzərdə tutulduğundan üç dəfədən çox olmaqla 626 mənzil verilib. İndiyədək isə həmin təbəqədən olanlar 6 min 654 mənzilə sahib olublar. Prezidentin tapşırığı ilə bu il də həmin kateqoriyadan olanlara azı 800 mənzil veriləcək.

Ölkəmizdə xüsusi həssas kateqoriyadan olan vətəndaşlar - əlillər də daim dövlət qayğısı ilə əhatə olunurlar.

Prezident İlham Əliyevin 2019-cu il 18 mart tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də baş vermiş qəzanın nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı əhalinin, xüsusilə həssas qrupların rifah halının yüksəldilməsi sahəsində növbəti mühüm addımdır. Bunun nəticəsində bu il həmin kateqoriyadan olanlara verilmək üçün əlavə olaraq 400-dən artıq avtomobil alınacaq. Beləliklə, bu il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibə əlillərinə və onlara bərabər tutulanlara planlaşdırıldığından üç dəfədən çox olmaqla 600-dək avtomobil təqdim edəcək.

Ötən il həmin kateqoriyadan olanlara 265 avtomobil verilib və bununla da onlara təqdim olunan minik avtomobillərinin sayı 6 min 144-ə çatıb. Hazırda dövlət büdcəsi hesabına minik avtomobili ilə təmin olunmaq üçün 997 nəfər əlilliyi olan vətəndaşlar növbəyə dayanıb və onlardan artıq 600-ə yaxını avtomobillə təmin ediləcəklər.

Eyni zamanda, ölkə başçısının imzaladığı sənədlərlə Prezidentin aylıq təqaüdü şəhid ailələri üçün 242 manatdan 300 manata, müharibə əlilləri - I qrup əlilliyi olanlar üçün 182 manatdan 250 manata, II qrup əlilliyi olanlar üçün 158 manatdan 230 manata, III qrup əlilliyi olanlar üçün 121 manatdan 210 manata çatdırılıb. Eyni zamanda, müharibə əlillərinin müavinətləri əhəmiyyətli şəkildə artırılmaqla, I qrup əlilliyi olanlara qulluq edənlər üçün 50 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis edilib.

Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Prezidentin aylıq təqaüdü əmək pensiyası almaq hüququ olan I qrup əlillərə şamil olunmaqla həmin təqaüdün məbləği də 100 manata çatdırılıb.

Həmçinin 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) verilən Prezidentin təqaüdünün məbləği artırılaraq 150 manat müəyyən olunub.

Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu sosial siyasət nəticəsində daim güclənən sosial təminat sisteminin əhatə etdiyi əhali qruplarından biri də uşaqlardır. Ölkəmizdə 10-dan çox sosial müavinət növü məhz uşaqların sosial müdafiəsinə yönəlib.

Bu gün sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, şəhid ailələrinin və müharibə əlillərinin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum olmuş uşaqlar aylıq sosial müavinətlə təmin edilirlər. Həmçinin ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin 1 yaşadək uşaqlarına aylıq sosial müavinət, yeni doğulan uşaqlara görə isə birdəfəlik müavinət ödənilir. Çernobıl AES qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına da müavinət verilir.

Ailə başçısını itirmiş ailələrə də aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin böyük əksəriyyətini, habelə ünvanlı sosial yardım alan ailə üzvlərinin 50 faizdən çoxunu uşaqlar təşkil edir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları aylıq sosial müavinətlə təmin edilirlər. Sığortaolunanlara da üç yaşınadək uşaqlara qulluğa görə müavinət ödənilir.

Uşaqlar üçün müəyyən edilən müavinətlərin mütəmadi olaraq artırılması daim diqqət mərkəzində saxlanılır. Dövlət başçısının 2019-cu il 25 fevral tarixli Sərəncamı bu sahədə növbəti və əhəmiyyətli addımın atılmasına imkan verib. Yeni Sərəncama əsasən, aprelin 1-dən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla həmin uşaqlara qulluq edənlər üçün də Prezidentin aylıq təqaüdü - 50 manat təsis edilib.

Eyni zamanda, Sərəncamla beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, uşaqların himayəçiləri üçün müavinət 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb. Ümumilikdə, bu ilin ötən dövründə Prezident İlham Əliyevin imzaladığı sənədlər təqribən 3 milyona yaxın vətəndaşı əhatə edib.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilmsi istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilir. Ölkə başçısının imzaladığı sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir. Bu, həmin kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

İyunun 18-də Prezident İlham Əliyev əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiqlədi. Bununla da ölkə başçısı "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiqlədi. Belə ki, ölkə başçısının həmin gün imzaladığı müvafiq Sərəncamı uyğun olaraq dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə işçilərin minimum aylıq əmək haqqı 250 manat müəyyən edildi.

Ölkə başçısının təqdim etdiyi yeni sosial paketə daxil olan müvafiq Sərəncamlarla büdcə təşkilatlarında çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması nəzərdə tutulur.

Onların sırasına Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbər və digər işçiləri daxildir.

Bundan başqa, Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında və sair sərəncamlar da imzalayıb.

Göründüyü kimi, dövlət başçısının yeni sosial paketi əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticə etibarilə əhalinin rifah halının yüksəldilməsi sahəsində ardıcıl irəliləyişlərin reallaşdırılmasına imkan verir.

**Zahid Rza,**
***"İki sahil"***

# Sosial sahədə islahatlar dərinləşir

**Ötən gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının nəzərəçarpacaq dərəcədə artırılması barədə sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin vətəndaş üçün olduğunu bir daha əyani şəkildə göstərir.**



Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədi ilə ölkə başçısı tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılmışdır ki, bu da özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın şəxsin əməkhaqqının artımına səbəb olacaq.

Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin sayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə 2,0 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

İmzalanmış sərəncamlar minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılmasını, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz artırılmasını, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılmasını, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz artırılmasını, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılmasını nəzərdə tutur.

Cari ilin əvvəlindən etibarən qəbul edilmiş bu səpkili qərarlar qlobal iqtisadiyyatda baş verən neqativ meyillərin ölkə əhalisinin sosial təminatına mənfi təsirini minimallaşdırmağa imkan verimişdirsə, hazırkı sərəncamlar isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq.

Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi aktivliyin daha da artmasına öz töhfəsini verəcək.

İqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası ölkə başçısının bəyan etdiyi sosial iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatı əhəmiyyətli dərəcədə artıb.

Büdcə gəlirlərinin daha artıq məbləğdə təmin edilməsi sosial sahədə islahatların dərinləşməsi üçün münbit şərait yaradıb.

Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə ölkə vətəndaşlarının sosial rifahına yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət-vətəndaş etimad mühitini dərinləşdirməklə, aparılan sosial siyasətin alternativsiz olduğunu bir daha sübut edir.

# Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları artırılır

**Prezident İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılsın:

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı;

1.2. Heydər Əliyev Mərkəzi;

1.3. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi;

1.4. Azərbaycanda Atatürk Mərkəzi;

1.5. Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;

1.6. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.7. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu;

1.8. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu;

1.9. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi;

1.10. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi;

1.11. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu.

Nazirlər Kabinetinə tapşırılır ki, dövlət orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən qurumların dövlət qulluqçusu olmayan işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılmasını təmin etsin; bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan qurumlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin; Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

## Prezident İlham Əliyevdən növbəti inqilabi addım

**Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilsin.**

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının, o cümlədən Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Sərəncamın 1-ci hissəsi 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

Qeyd edək ki, bundan əvvəl minimum aylıq əməkhaqqının məbləği 180 manat təşkil edib.

## Dövlət ümumi təhsil müəssisələri və peşə təhsili müəssisələrində əməkhaqları artırıldı

**Prezident İlham Əliyev dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Prezident İlham Əliyev eyni zamanda dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqlarının artırılması haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

# Bu dövlət qurumlarında aylıq vəzifə maaşları artırıldı

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.



* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 16, № 2, maddə 105; 2013, № 12, maddə 1588; 2018, № 5, maddə 1013) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin aylıq vəzifə maaşları aşağıdakı məbləğlərdə müəyyən edilsin:

1.1. Sədr - 3060 manat

1.2. Sədrin müavini - 2845 manat

1.3. Katib - 2110 manat

1.4. Mərkəzi Seçki Komissiyasının üzvü - 1920 manat."

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

⇨ Davamı 5-ci səhifədə

# Bu dövlət qurumlarında aylıq vəzifə maaşları artırıldı

⇨ Əvvəli 4-cü səhifədə




**Prezident İlham Əliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin və bu Sərəncamdan irəli gələn məsələləri həll etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin və bu Sərəncamdan irəli gələn məsələləri həll etsin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

*Ali Baş Komandan:*

# Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər

**Ölkəmizdə aparılan siyasi, iqtisadi islahatların tərkib hissəsi olan hərbi potensialımızın möhkəmləndirilməsi əsas prioritet kimi öndə dayanır. Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, Azərbaycan Ordusunun dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxil olması, müdafiə sisteminin etibarlı təminatı bu cür diqqətin sayəsində mümkün olmuşdur. İqtisadi qüdrəti artan Azərbaycanda Silahlı Qüvvələrimizin hücum və müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchizatı, ordumuzun "Azərsilah" ASC-nin obyektlərində istehsal edilən silah-sursatlarla təminatı əsgərlərimizin döyüş qabiliyyətini artırır, maddi-texniki bazanı möhkəmləndirir.**



Bir neçə beynəlxalq müdafiə sərgisinə ev sahibliyi edən Azərbaycanda istehsal olunan hərbi təyinatlı məhsullara marağın çoxalması, respublikamızın silah ixrac edən ölkəyə çevrilməsi, hərbi xərclərimizin 15 dəfə artması, hərbçilərin mənzil-məişət şəraitinin yaxşılaşması müdafiə qüdrətimizi artırır. İqtisadi imkanlarımızın möhkəmlənməsi sayəsində ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilir. Son illərdə alınan yüzlərlə zirehli texnika, gözətçi və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi, nəqliyyat helikopteri, müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, yeni nəsil artilleriya qurğuları, əməliyyat-taktiki raket kompleksləri hərbi gücümüzü artırır. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycanın dünya miqyasında nadir ölkələrdən biri adlandırılması aparılan islahatların məntiqi nəticəsidir.

"Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun. Ona görə edirik ki, hərbi potensialımız güclənsin" söyləyən Prezident, Ali Baş Komandan İlham Əliyev onu da bildirir ki, uzun illər aparılan islahatlar iqtisadi qüdrətimizin artması hesabına mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra apardığı islahatlarda ordu quruculuğu xüsusilə fərqlənmişdir. Uğurlu Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsinin işğalçılardan azad edilməsi də Silahlı Qüvvələrimizə göstərilən diqqət nəticəsində mümkün olmuşdur.

2016-cı ilin aprel ayında ermənilərin təxribatlarının qarşısını alan ordumuzun qazandığı uğurlarının qeyd olunduğu üçüncü ilində "N" saylı hərbi hissədə döyüşçülərlə görüşən Ali Baş Komandan İlham Əliyev həmin tarixi Silahlı Qüvvələrimizin zəfər salnaməsi adlandırdı: "Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir... Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır".

Həmin əməliyyatlarda əsl qəhrəmanlıq göstərən əsgərlərimiz strateji yüksəklikləri azad etdilər. Ermənistanın sınıq-salxaq, fərarilərdən ibarət ordusu ilə bağlı illərdən bəri formalaşdırmağa çalışdığı "qüdrətli ordu" mifi darmadağın edildi. Qələbə müjdəli aprel döyüşlərindən sonra aparılan Naxçıvan əməliyyatı Ermənistana növbəti zərbə oldu. 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar ərazi Naxçıvan Əlahiddə Ümumqoşun Ordu tərəfindən peşəkarlıqla aparılmış əməliyyat nəticəsində azad edildi. Qəhrəmanlıq, rəşadət göstərən Azərbaycan əsgərləri bildirdilər ki, Azərbaycan Silahlı Qüvvələri istənilən vaxt ərazi bütövlüyümüzü bərpa etmək qüdrətindədir.

"Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək" söyləyən Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, Ermənistan ən müasir silahlarla təchiz olunmuş ordumuzla heç cür rəqabət apara bilməyəcək.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayraqlarının dalğalanması qələbəyə çağırışdır. İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə yeni həyat verildi. Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu. 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradıldı.

Artıq gizli deyil ki, son illərdə hərbi sahədə aparılan islahatlar hərbi gücümüzü artırmaqla diplomatiyada, döyüş meydanlarında qələbəyə inamı artırır, əsgərlərin döyüş əzmini daha da gücləndirir. Dünyanın ən böyük təşkilatlarından olan, sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında önəmli xidmətləri ilə seçilən , beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiq qalan Qoşulmama Hərəkatına üzv olan Azərbaycanın NATO ilə münasibətlərinin möhkəmlənməsi Silahlı Qüvvələrimizə etibarı artırır.

Bu günlərdə regionda sülhün, sabitliyin təminatı üçün təşkil olunan Azərbaycan -Türkiyə-Gürcüstan müdafiə nazirləri arasında keçirilən görüşlər, Naxçıvanda Türkiyə-Azərbaycan Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq-2019" adlı birgə döyüş atışlı taktiki təlimləri ölkəmizin müdafiə qüdrətinin istənilən səviyyədə olduğunu təsdiqləyir. " Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır" söyləyən Prezident, Ali Baş Komandan İlham Əliyev muxtar respublikanın müdafiə qüdrətinin artırılmasına diqqətlə yanaşır. "Bir millət, iki dövlət" deyimini əks etdirən Silahlı Qüvvələrin birgə təlimi göstərdi ki, hər iki ölkə hərbçilərində döyüş əzmi, vətənpərvərlik və birlik yüksəkdir. Əlahiddə Ümumqoşun Ordu ilə Türkiyə Silahlı Qüvvələrinin birgə təlimi bir həqiqəti əks etdirdi: Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Çünki şəxsi heyət döyüş həmlələrini təlimlərdə öyrənir. "Sarsılmaz qardaşlıq-2019" bütün dünyaya nümayiş etdirdi ki, Silahlı Qüvvələrimiz hər bir vəzifəni təkcə və birgə icra etməyə hazırdır və qadirdir

Türkiyənin milli müdafiə naziri Hülusi Akarla Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Naxçıvanda keçirdikləri görüşdə qeyd olunduğu kimi, hər iki ölkə arasındakı hərbi əməkdaşlıq dostluq, qardaşlıq münasibətləri əsasında möhkəmlənir. Ermənistanı təşvişə salan "Sarsılmaz qardaşlıq-2019" kimi təlimlər həm də qələbəyə inamı artıran hərbi hazırlıq idi.

"Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirik, ancaq bu gün bunu bütün dünya bilir" söyləyən Prezident, Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi Azərbaycan işğal altında qalan torpaqlarını Silahlı Qüvvələrinin rəşadəti ilə azad edəcək.

✍ **Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Təhlükəsizlik Şurası Aparatının mətbuat katibi Yevgeni Anoşin məlumat verib. O bildirib ki, iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli şəxslərin Rusiyanın Ufa şəhərində keçirilən X beynəlxalq görüşü çərçivəsində baş tutan ikitərəfli görüşdə güc və xüsusi xidmət idarələrinin qarşılıqlı fəaliyyəti, eləcə də bu ilin sonunadək təhlükəsizlik sahəsində əməkdaşlıq planı müzakirə olunub.

# Mehriban Əliyeva: Təhsil hər bir millətin tərəqqisinin, parlaq gələcəyinin əsasını təşkil edir

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Gələcəyə doğru" adlı məzun gecəsinin iştirakçılarına təbrik məktubu ünvanlayıb.**

AZƏRTAC xəbər verir, məktubda məzunların müstəqil həyata, öz taleyinizi müəyyən edəcək yeni və vacib bir mərhələyə qədəm qoyduğu vurğulanır.

Məktubda deyilir: "Müasir dünyada elm sürətlə inkişaf edir, hər gün mühüm bir yeniliyin şahidi oluruq. Bütün bunlar siz gənclər üçün böyük imkanlar yaradır. Müasir elmin yeniliklərini dərindən mənimsəmək günümüzün tələbidir. Fəal və cəsarətli olmaq, əldə etdiyiniz bilikləri daha da inkişaf etdirmək, müxtəlif sahələrdə yeni ideyaları ortaya qoyaraq onları reallaşdırmaq sizin əlinizdədir.

Seçəcəyiniz peşədən asılı olmayaraq, hər biriniz dövlətimizin müstəqilliyini, xalqımıza məxsus nəcib dəyərləri qorumalı, Azərbaycanın daha da inkişaf etməsinə və güclənməsinə çalışmalısınız. Əminəm ki, bu gündən etibarən verdiyiniz bütün qərarların, atdığınız hər bir addımın əsasını xoş niyyət, xeyirxahlıq və ədalət təşkil edəcəkdir".

Qeyd olunur ki, təhsil hər bir millətin tərəqqisinin, parlaq gələcəyinin əsasını təşkil edir. Dövlət siyasətinin əsas prioritetlərindən biri kimi təhsilin inkişafına böyük vəsait yatırılmaqdadır. Əsas hədəfimiz savadlı və müasir düşüncəli gəncliyin yetişməsidir. Çünki parlaq gələcəyimizi qurmaq sizin üzərinizə düşəcəkdir.

Son illər ərzində ölkəmiz böyük inkişaf yolu keçdiyinin, qarşıda yeni hədəflər dayandığının vurğulandığı məktubda məzunlara müraciətdə deyilir: "Cənab Prezident İlham Əliyev inamlı addımlarla bizi daha gözəl bir gələcəyə doğru aparır və bu yolda sizin kimi parlaq, savadlı, cəsur və vətənpərvər gənclərə arxalanır. Gəlin birlikdə vətənimiz Azərbaycanın daha da çiçəklənməsi və qüdrətlənməsinə dəstək olaq".

Birinci vitse-prezidenti Mehriban Əliyeva məzunlara sonrakı təhsildə və fəaliyyətdə yeni nailiyyətlər arzulayıb.





## *Əli Əhmədov:* Azərbaycanda təhsillə bağlı problemlər öz həllini tapıb, savadsızlıq aradan qaldırılıb

Azərbaycanda təhsillə bağlı problemlər öz həllini tapıb, savadsızlıq aradan qaldırılıb.

Trend-in məlumatına görə, bunu Baş nazirin müavini Əli Əhmədov deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycanda böyük nailiyyətlər əldə olunub: "Azərbaycanda insanlara səhiyyə xidmətinin göstərilməsi istiqamətində çox böyük layihələr həyata keçirilir. Eyni zamanda, gələn ildən icbari tibbi sığorta tətbiq olunacaq".

Əli Əhmədov deyib ki, bütün bu nailiyyətlər, eləcə də insan amilinin inkişaf etdirilməsi ilə bilavasitə əlaqədar olan məsələlər Azərbaycanın BMT-yə iyulda təqdim edəcəyi Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üzrə ikinci Milli Hesabatında öz əksini tapacaq. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hazırladığı beynəlxalq layihə Azərbaycan tərəfindən də dəstəklənir. Azərbaycan bu layihənin həyata keçirilməsinə qoşulub. Bu layihənin əsas məqsədi 2030-cu ilə qədər dünyanın əhəmiyyətli dərəcədə dəyişdirilməsidir. Hesab edirəm ki, Azərbaycan da sürətlə dəyişən bir ölkə kimi bu proqramın həyata keçirilməsində yaxından iştirak edəcək".

# SOCAR prezidenti "Honeywell PMT" şirkətinin prezidenti ilə görüşüb





SOCAR Tower-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev ABŞ-ın "Honeywell Performance Materials and Technologies" ("Honeywell PMT") prezidenti və baş direktoru Raciv Quatamın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Qonaqları salamlayan Rövnəq Abdullayev "Honeywell PMT" şirkətlər qrupuna daxil olan UOP şirkəti ilə SOCAR arasında uzunmüddətli və sıx əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd etmiş, bu əlaqələrin Türkiyədə STAR neft emalı zavodunun inşası və Heydər Əliyev adına Neft Emalı Zavodunun moderinizasiyası layihələrində daha da dərinləşdiyini bildirmişdir. SOCAR-ın prezidenti UOP təmsilçilərini modernizasiya prosesində daha aktiv olmağa dəvət etmişdir.

Honeywell PMT şirkətinin prezidenti və baş direktoru Raciv Qautam rəhbərlik etdiyi şirkətin STAR neft emalı zavodunun tikintisi və Heydər Əliyev adına Neft Emalı Zavodunun moderinzasiyası layihələrində yaxından iştirak etməsindən məmnunluğunu bildirmiş, şirkətə məxsus müasir emal texnologiyalarının Azərbaycanda tətbiqində, həmçinin azərbaycanlı mütəxəssislərin peşə təlimlərinə cəlb edilməsində maraqlı olduğunu vurğulamışdır.

Qeyd olunmuşdur ki, SOCAR Heydər Əliyev adına Neft Emalı Zavodunun modernizasiyası layihəsində və Türkiyədə STAR neft emalı zavodunda bir sıra texnoloji qurğularda "Honeywell UOP" şirkətinin texnologiyalarından istifadə edir. Bununla yanaşı, "Honeywell PMT" şirkəti qeyd olunan hər iki layihədə Əsas Avtomatlaşdırma Podratçısı qismində iştirak edərək zavodları ən müasir avtomatlaşdırma sistemləri ilə təmin edir.

Xatırladaq ki, ulu öndər Heydər Əliyevin səyləri və uzaqgörən siyasəti sayəsində hələ 1980-ci ildə hazırda onun adını daşıyan Neft Emalı Zavodunda UOP texnologiyası ilə ilk katalitik riforminq qurğusu quraşdırılmış və bununla da bütün Sovet İttifaqında yüksək oktanlı benzinin istehsalına doğru mühüm addım atılmışdır.

Honeywell UOP (www.uop.com) emal texnologiyası, katalizatorlar, adsorbentlər, avadanlıq təchizatı və lisenziyası ilə məşğul olur, neft emalı, neft-kimya və qaz emalı üzrə konsaltinq xidmətləri göstərir. "Honeywell UOP" şirkəti "Honeywell's Performance Materials and Technologies" strateji biznes qrupunun bir hissəsi olub, neft-qaz, emal, neft-kimya, kimya və digər sənaye sahələrində avtomatlaşdırma proseslərinin pioneridir. (www.ho-

# Azərbaycan nümayəndə heyəti Vyanada Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb





Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyada səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb.

Görüşdə Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov və Səməd Seyidov, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart, Avstriya parlamentinin üzvü Qeral Hauzer, Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının rəhbərliyi iştirak ediblər.

Görüşün əvvəlində iyunun 19-da Vyanada keçiriləcək "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans üçün yaradılan şəraitə görə təşəkkür edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin ideya rəhbəri olduğu tədbir barədə ətraflı məlumat verib. Qeyd edilib ki, müxtəlif dinlərin və mədəniyyətlərin dinc birgə yaşadıqları Avstriya tarixən yüksək tolerantlığın hökm sürdüyü ölkə kimi tanınıb və məhz buna görə də beynəlxalq konfransın bu ölkənin paytaxtı Vyana şəhərində keçirilməsi qərara alınıb.

Şeyxülislam Avstriya nümayəndələrini bu ilin sentyabrında keçiriləcək "Dünya dini liderlərinin II Bakı sammiti"ndə iştiraka dəvət edib.

Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart konfransın Vyanada keçirilməsindən məmnunluğunu ifadə edərək, özünü əbədi bitərəf dövlət elan etmiş Avstriyada dinlərarası və mədəniyyətlərarası dialoqun mühüm əhəmiyyət daşıdığını bildirib. Bu tarixi ənənə fonunda Avstriyanın müxtəlif dini, milli, mədəni və digər görüşləri təmsil edən tərəflər arasında dialoqun baş tutduğu ölkəyə çevrildiyini qeyd edən nazir, həmçinin bu amillərlə yanaşı, iqtisadi əlaqələrin inkişafının diqqət mərkəzində durduğunu bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycanı və Avstriyanı uzun illərə söykənən dostluq əlaqələri bağlayır. Bu ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyaya səfəri bu dostluğun zirvə nöqtəsini təşkil edib. Həmin səfər çərçivəsində Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının əsası qoyulub. Bu Şuranın əsas məqsədi iki ölkə arasındakı dostluq əlaqələrini yeni mərhələyə çıxarmaqdır. Avstriya-Azərbaycan iqtisadi əlaqələrinin dərinləşməsi ilə yanaşı, mədəni və dini mövzularda layihələrin inkişaf etdirilməsini hədəf seçən bu qurum ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsinə qarşılıqlı marağın mövcud olması hər iki ölkənin bu əlaqələrdən bəhrələnməsinə gətirib çıxaracaq.

Nazir bir daha iki ölkə arasında sıx və mütəmadi əlaqələrin inkişaf etməsində maraqlı olduqlarını və şəxsən özünün Azərbaycana dərin dostluq hissləri bəslədiyini ifadə edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov görüşdə çıxış edərək Prezident İlham Əliyevin Avstriya xalqına və hökumətinin üzvlərinə ehtiram və salamlarını çatdırıb. Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan tərəfi ölkələrimiz arasında münasibətlərin daha da inkişafına dəstək verəcək və bu inkişafa maraq dövlət başçıları tərəfindən də ifadə olunub.

Cari ilin martında Prezident İlham Əliyevin Avstriyaya uğurlu səfərinin nəticəsi olaraq Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının yaradıldığını və bu qurumun artıq öz fəaliyyət istiqamətlərini müəyyən edərək işə başladığını bildirən Əli Həsənov Şuranın iki ölkə arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Vyananın Avrasiyada dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzlərindən biri olduğunu bildirən Prezidentin köməkçisi beynəlxalq konfransın keçirilməsi üçün məkan seçimində qərarın bu şəhərin xeyrinə verilməsinin təsadüfi olmadığını diqqətə çatdırıb. Qeyd edilib ki, dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin istiqamətlərindən biridir. Azərbaycanın müstəqillik tarixinin son 25 ilində ölkə daxilində davamlı olaraq bu istiqamətdə dialoq dövlətin yürütdüyü ali siyasi kursdur. Lakin Azərbaycan bu dialoqu ölkə daxilində reallaşdırmaqla kifayətlənmir, eyni zamanda, qarşılıqlı hörmət və rəğbətə söykənən bu dəyərləri dövlətlərarası münasibətlərin əsas prinsiplərindən biri hesab edir. Dövlətlərarası müstəvidə bu, özünü müxtəlif sivilizasiyalar arasında əlaqələrin intensivləşməsində tapır. Azərbaycan dövlətinin başçısı müxtəlif xüsusiyyətlərə malik sivilizasiyalar arasında dialoq, əməkdaşlıq və tərəfdaşlığı alternativi olmayan bir istiqamət hesab edir və dünya ölkələrinin bu siyasi xəttə əməl etməsi arzuolunandır.

Vyanada keçiriləcək konfransa toxunan Əli Həsənov qeyd edib ki, bütün dinləri və sivilizasiyaları təmsil edən nümayəndələrin, dövlət və hökumət rəsmilərinin iştirak edəcəkləri tədbirdə dinlərarası və sivilizasiyalararası əməkdaşlığa çağırış edən bəyannamənin qəbul olunacağı da gözlənilir. Konfransda müzakirəyə çıxarılacaq mövzular, ediləcək çağırışlar, onun təmsil etdiyi dəyərlər həm Azərbaycanın, həm Avstriyanın, həm də bütövlükdə Avropa İttifaqının kursuna tam uyğundur.

Qeyd edək ki, iyunun 19-da Vyanada "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda keçiriləcək beynəlxalq konfransda dünyanın 30-dan çox ölkəsini təmsil edən 300-ə yaxın dövlət, ictimaiyyət, elm və din xadimlərinin, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərlərinin, o cümlədən BMT Baş katibinin müavinləri - M.Moratinos və R.Xalikovun, Avstriya Federal Hökumətinin və parlamentinin nümayəndələrinin, habelə Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların, dini konfessiyaların nümayəndələrinin iştirakı nəzərdə tutulub.

## IDEA ilə Ümumdünya Turizm Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

**İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Zurab Pololikaşvili ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

İmzalanma mərasimindən sonra Leyla Əliyeva ilə Zurab Pololikaşvili arasında ikitərəfli görüş keçirilib. Görüşdə Leyla Əliyeva ÜTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə IDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Tərəflər Azərbaycanda və regionda birgə layihələrin həyata keçirilməsi və beynəlxalq tədbirlərin təşkili perspektivlərini müzakirə ediblər.

# Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

## Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib





**İyunun 17-də Xəzər dənizinin ekoloji mühitinin yaxşılaşdırılması üzrə IDEA İctimai Birliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlığı çərçivəsində Neftçalada yerləşən Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov iştirak ediblər.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı nərə balıqartırma zavodu 2003-cü ildə istismara verilib. Bu zavod Xəzər regionunda ən iri nərə balıqartırma müəssisəsidir. Burada bölgə, nərə, kələmo və uzunburun kimi nərə cinsli balıq növləri artırılaraq Kür çayının mənsəbinə buraxılır. Zavodun istehsal gücü ildə 15 milyona qədər nərə balıq körpələridir. Ümumi sahəsi 15 hektar olan zavodda 4 nohur, 54 beton hovuz var.

Müəssisə ilə tanışlıqdan sonra Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi oldu.

Mərasimdə iştirak edən BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov jurnalistlərə müsahibəsində dedi: "Hər dəfə Azərbaycana gələndə təəssürat içində oluram. Bu gün mənim üçün daha bir səhifə açılıb. Leyla xanım Əliyeva ekologiya problemi ilə kifayət qədər çoxdan və ciddi məşğul olur. O, aydın başa düşür ki, Yer üzündə ən böyük sərvət insandır. İnsan isə yalnız ekologiyanın normal olduğu yerdə, normal təbii şəraitdə salamat qala bilər. Odur ki, bu işlə məşğul olur. Əlbəttə, bu, Birləşmiş Millətlər Təşkilatında təbiəti mühafizə ilə məşğul olan təşkilatın səfiri kimi məni çox sevindirdi. Bu problemlə getdikcə daha çox məşğul olduğum üçün deyə bilərəm ki, indi bu, ən başlıca məsələdir".

Qeyd edək ki, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.







## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva BMT-nin xoşməramlı səfiri Vyaçeslav Fetisovla görüşüb



İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ilə ölkəmizdə səfərdə olan BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məsələləri, bununla əlaqədar yerli və regional səviyyədə görülən işlər və irəli sürülən təşəbbüslər, xüsusən də Xəzər dənizinin bioloji resurslarının mühafizəsinə yönəlmiş səylər müzakirə edilib.

Leyla Əliyeva IDEA-nın son illər əldə etdiyi nailiyyətləri, hazırda həyata keçirilən layihələri və gələcək planları haqqında BMT rəsmisinə məlumat verib.

Tərəflər, həmçinin ətraf mühit və davamlı inkişaf məsələləri üzrə BMT-nin xoşməramlı səfirləri qismində həyata keçirdikləri fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Boyatda bayram bayrama qarışdı





"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən "mavi yanacaq"la təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində respublikanın qaz təchizatı şəbəkəsi genişləndirilir və müasirləşdirilir.

Məhz 15 İyun - Milli Qurtuluş Günündə Ağcabədi rayonunun Boyat kəndinə təbii qazın verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub.

Tədbirdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev, Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələri iştirak etmişlər. Bildirilmişdir ki, ümumilikdə 467 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 49 min 424 metr olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, həmçinin paylayıcı qaz xətləri çəkilmiş, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılmışdır.

Boyat kəndi ilə yanaşı, hazırda Ağcabədi rayonunun Üzeyir Hacıbəyov, Həmidə Məmmədquluzadə, Qarabağ və Eldəniz Sadıqov küçələrini əhatə edən 4 yeni massivdə 128 fərdi evin qazlaşma işləri də yekunlaşdırılıb, istismara qəbul mərhələsindədir. Tezliklə təbii qazın verilişi təmin ediləcək.

Tədbirdə çıxış edən SOCAR prezidenti Rövnəq Abdullayev bu əlamətdar hadisə münasibətilə kənd sakinlərini təbrik etmiş, son illər ölkənin hər yerində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülmüş məqsədyönlü tədbirlərdən danışmış, qeyd etmişdir ki, təbii qaz almayan yaşayış məntəqələrinin sürətli templərlə "mavi yanacaq"la təmin olunması xalqımızın rifah halının daha da yaxşılaşmasına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin qazlaşdırılması proqramının icrasını daim diqqət mərkəzində saxladığını bildirən SOCAR prezidenti bu sahədə həyata keçirilən işlərin bundan sonra da davam etdiriləcəyini vurğulamışdır.

Çıxış edən ictimaiyyət nümayəndələri kəndə təbii qazın verilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

Daha sonra yaşayış məntəqəsinə təbii qazın verilməsini bildirən rəmzi məşəli alovlandıran SOCAR-ın prezidenti Rövnəq Abdullayev yaxınlıqdakı evlərdən birinin mətbəxində olmuş, ev sahiblərini təbrik etmiş, əhalinin qazla davranış və təhlükəsizlik qaydaları üzrə maarifləndirilməsi işləri ilə maraqlanmışdır.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Akademik Xoşbəxt Yusifzadənin biblioqrafiyası çapdan çıxıb




"Akademik Xoşbəxt Yuifzadə. Biblioqrafiya" kitabının yeni nəşri çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, AMEA-nın akademiki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Gürcüstan Milli Elmlər Akademiyasının xarici həqiqi üzvü, Rusiya Beynəlxalq Mühəndislik Akademiyasının fəxri akademiki və Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor Xoşbəxt Yusifzadənin biblioqrafiyası SOCAR tərəfindən 2007-ci və 2012-ci illərdə Bakıda Azərbaycan, rus və ingilis dillərində, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən 2009-cu ildə Ankarada türk, ingilis, rus və Azərbaycan dillərində nəşr olunmuş "Akademik Xoşbəxt Yusifzadə. Biblioqrafiya"ları əsasında yenidən işlənmiş və əlavələr edilmiş dördüncü nəşridir.

Biblioqrafiya akademik Xoşbəxt Yusifzadənin 1957-2018-ci illərdə Azərbaycan, rus və ingilis dillərində dərc olunmuş elmi məqalələrinə, habelə monoqrafiyalarına, geoloji xəritə və atlaslarına, elmi sessiya, simpozium və konfranslardakı məruzə və çıxışlarına, dəniz neftqaz yataqlarının kəşfinə və texniki ixtiralarına dair informasiyaları əhatə edir.

Biblioqrafiyanın üç dildə yenidən işlənmiş nəşri "X.B.Yusifzadənin elmi-tədqiqat işləri, neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində nailiyyətləri barəsində qısa məlumat", "Akademik X.B.Yusifzadənin həyat və fəaliyyətinin əsas mərhələləri", "Nəşr edilmiş elmi əsərləri xronoloji ardıcıllıqla" və "Alim ömrü fotolarda" hissələrindən ibarətdir.

Kitab ulu öndər Heydər Əliyevin "Azərbaycanda Xəzər dənizini Xoşbəxt Yusifzadə kimi bilən ikinci adam yoxdur" və Prezident İlham Əliyevin "Akademik Xoşbəxt Yusifzadə ... nəinki Azərbaycanda və keçmiş Sovet İttifaqında, eləcə də dünya miqyasında tanınmış mütəxəssisdir" fikirləri ilə başlanır.

Biblioqrafiyada, həmçinin Əməkdar jurnalist Ələkbər Abbasovun (Şəhrili) akademik "X.B.Yusifzadənin həyatı, elmi və istehsalat fəaliyyəti haqqında" oçerki yer alıb.

Azərbaycan neft və qaz sənayesinin patriarxlarından biri olan Xoşbəxt Yusifzadə respublikada neftin həm birinci, həm də ikinci milyard tonunun hasil edilməsinin iştirakçısıdır. Görkəmli neftçi-alim həyatını və elmi-istehsalat fəaliyyətini respublikamızda, xüsusən də Xəzər dənizində neft və qaz-kondensat yataqlarının kəşfinə və işlənilməsinə həsr edib. O, tutduğu vəzifədən asılı olmayaraq, elmi işdən ayrılmayıb. Onun elmi məqalələri, fundamental monoqrafiyaları bu gün neftçi-geoloqların, ali məktəblərin müvafiq fakültələrində mühazirə oxuyan müəllimlərin və təhsil alan tələbələrin stolüstü kitablarıdır.

Məşhur alimin və görkəmli istehsalat təşkilatçısı Xoşbəxt Yusifzadənin rəhbərliyi və iştirakı ilə aparılan elmi-tədqiqat işlərinin nəticələri onun 200-dən çox elmi əsərində, o cümlədən 18 monoqrafiyasında və ixtirasında öz əksini tapıb.

X.Yusifzadə neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsinin aktual problemlərinə, yanacaq-energetika kompleksinin inkişafına dair Azərbaycan paytaxtında və xarici ölkələrdə keçirilmiş bir çox elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edib, milli neft elminin, Azərbaycan geoloq və geofiziklərinin daim böyük maraq doğuran nailiyyətlərini uğurla nümayiş etdirib.

1988-ci ildən başlayaraq, X.Yusifzadə xarici şirkətlərlə birgə aparılmış bütün işlərdə, o cümlədən Xəzər dənizinin Azərbaycan sektoru və quru sahələri üzrə bugünədək bağlanmış 35 neft sazişinin hazırlanmasında və imzalanmasında bilavasitə iştirak edib. Alimin əməyi dövlət tərəfindən hər zaman layiqincə qiymətləndirilib. O, SSRİ-nin iki "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, bir sıra medallar və fəxri fərmanları ilə təltif edilib, iki dəfə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. Ona "SSRİ-nin fəxri neftçisi", "Yer təkinin fəxri kəşfiyyatçısı", istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycanın "Əməkdar mühəndisi" fəxri adları verilib. Müstəqillik illərində Azərbaycanın "İstiqlal", "Şöhrət", "Şərəf" və 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif olunub.

Xoşbəxt Yusifzadənin xidmətləri xaricdə də yüksək qiymətləndirilib. Vyetnam Sosialist Respublikası üçün yüksəkixtisaslı neft mütəxəssislərinin hazırlanmasında böyük xidmətlərinə görə 2011-ci ildə həmin ölkənin "Dostluq" ordeni ilə təltif olunub.

Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının qərarı ilə türk dünyasının elmi, təhsili və iqtisadiyyatı sahəsində böyük xidmətlərinə görə X.Yusifzadə 2008-ci ildə bu akademiyanın beynəlxalq "Qızıl Ulduz Medalı" ilə təltif edilib, "İlin alimi" elan olunub, 2011-ci ildə isə "Türk dünyasının fəxri alimi" adına layiq görülüb.

Neft hasilatında nanotexnologiyaların inkişaf etdirilməsi və tətbiqi sahəsində xidmətlərinə görə 2010-cu ildə Dövlət Neft Şirkətinin bir qrup mütəxəssisi ilə birlikdə UNESKO-nun xüsusi medalı ilə təltif olunub, adı bu beynəlxalq təşkilatın ensiklopediyasına daxil edilib.

BMT-nin Cenevrə şəhərində fəaliyyət göstərən İctimai Təltif Şurasının 2018-ci il 27 dekabr tarixli qərarına əsasən dünya elmi və iqtisadiyyatı qarşısında xidmətlərinə görə Avropa Ali Xidmət ordeni ilə təltif olunub.

Akademik Xoşbəxt Yusifzadənin həyatı, elmi-istehsalat fəaliyyəti haqqında ətraflı məlumatı biblioqrafiyadan əldə etmək mümkündür. Nəşrin redaktoru Ələkbər Abbasov, mətnləri tərcümə edənlər Riçard Peqq, Emil Bağırov və Vadim Abramenkodur.

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi

**İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 2019-cu il buraxılışı münasibəti ilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.**

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə mərasimə hazırlıq barədə raport verib.

Ali Məclisin Sədri kursantları salamlayıb.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycanın dövlət himnini ifa ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 19-cu buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri və tədbir iştirakçılarını təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyev gənclərin hərb sənətinə yiyələnməsi vacibliyini önə çəkərək deyirdi: "Gəncləri hərbi məktəblərə daxil olmaq və Silahlı Qüvvələrimizin zabit korpusunda xidmət etmək üçün hazırlamaq qarşımızda duran ən mühüm vəzifədir". Ötən əsrin 70-ci illərində Ulu Öndər tərəfindən ölkəmizdə ilk hərbi məktəbin yaradılması müstəqillik bərpa edildikdən sonra milli ordumuzun komandan-zabit heyətini formalaşdırmış, 1998-ci ildə dahi şəxsiyyətin Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının təşkil olunması isə blokada şəraitində yerləşən muxtar respublikanın müdafiə təhlükəsizliyinə töhfə vermişdir.

Ali Məclisin Sədri deyib: Böyük uzaqgörənliklə qəbul olunmuş bu qərarın tarixi əhəmiyyəti zaman keçdikcə öz təsdiqini tapmış, ölkə Prezidentinin Sərəncamı ilə 2004-cü ildə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 375 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla ötən dövrdə hərbi liseyi 3 mindən artıq kursant bitirərək ölkəmizdə və xaricdə ali hərbi məktəblərə qəbul olmuşdur. Hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində liseyin 2 minə yaxın məzunu zabit kimi xidmət edir. Bu, bizi qürurlandırır. Ölkəmizin gələcək zabitlərini hazırlayan Heydər Əliyev adına Hərbi Liseylə fəxr edirik!

Ali Məclisin Sədri kursantlara müraciətlə deyib: Ordu o zaman güclü olur ki, onun peşəkar komandan-zabit heyəti olsun. Azərbaycan dövləti hərbi təhsil müəssisələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, zabit hazırlığına diqqəti artırır. Qalır bu imkanlardan səmərəli istifadə etmək. Hər bir kursant istər hərbi liseydə, istərsə də ali hərbi məktəblərdə təhsil aldığı dövrdə hərb sənətini dərindən öyrənməli, daim öz üzərində işləməli, gələcəyin zabiti kimi yetişməlidir. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Zabit adının məsuliyyəti daha böyükdür. Bu peşəni seçən hər bir gənc, ilk növbədə, Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir.

Qeyd olunub ki, bu gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri müasir maddi-texniki təminata, döyüş texnikalarına və silahlara malikdir. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında hərbi qulluqçuların xidməti və yaşayış şəraiti üçün ardıcıl tədbirlər görülür. Yeni hərbi hissələr, xidməti yaşayış kompleksləri istifadəyə verilir. Ona görə də gələcəyin zabiti olacaq gənclər məsuliyyətlərini daha da artırmalı, müasir döyüş texnikalarından və silahlardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, Ümummilli Liderimizin ideyalarına və Ali Baş Komandanımıza daim sədaqətli olmalıdırlar. Müstəqil Azərbaycanın zabiti adını daşımağın şərəfi də məhz bundan ibarətdir.





Ali Məclisin Sədri bir daha buraxılış münasibətilə kursantları təbrik edib, qarşıya qoyulan vəzifələrin icrasında, gələcək təhsildə və xidmətdə onlara uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Məhəmməd Həsənov buraxılış mərasimində iştirakına görə Ali Məclisin Sədrinə liseyin kollektivi adından hörmət və ehtiramlarını bildirərək deyib: Ulu Öndərin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Görülən işlər sırasında ixtisaslı hərbçi kadrların hazırlanması xüsusi yer tutur. Heydər Əliyev adına Hərbi Liseyin yaranması, keçdiyi inkişaf yolu və malik olduğu müasir təlim-tədris bazası bunu bir daha təsdiq edir. Hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı ilbeil artır. Liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Cari dərs ilində kursantların fiziki və mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılıb, onlar il ərzində keçirilən beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarında iştirak edərək layiqli yerlər tutublar.







Valideyn Sara Qurbanova çıxış edərək deyib: Bu gün bir valideyn kimi qürur duyuram. Çünki övladım Heydər Əliyev adına Hərbi Liseyi bitirərək ali hərbi məktəbə qəbul olub. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq Vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir Azərbaycan gənci bütün gənclərdən qiymətlidir". Bu gün Heydər Əliyev adına Hərbi Liseydə yüzlərlə gənc təhsil alır, milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Xoşbəxtəm ki, mənim övladım da bu şərəfli peşəni seçib. Valideyn olaraq kursantlara arzum budur ki, gələcəkdə Vətənin keşiyində mərdliklə dayansınlar. İstər ali hərbi məktəblərdə təhsil aldıqları, istərsə də Silahlı Qüvvələrdə xidmət etdikləri dövrdə göstərilən etimadı şərəfli xidmətlə doğrultsunlar. Heydər Əliyev adına Hərbi Lisey Ali Məclis Sədrinin təşəbbüsü ilə yaranıb, diqqət və qayğısı ilə əhatə olunub, inkişaf edərək mətinlik məktəbinə çevrilib. Liseydə övladlarımızın təhsili, yaşayışı və vətənpərvər ruhda böyüdülməsi üçün hərtərəfli şərait var. Göstərilən qayğı bütün valideynlər tərəfindən razılıq və minnətdarlıqla qarşılanır.

Heydər Əliyev adına Hərbi Liseyin məzun kursantı Kərim Ələkbərov çıxış edərək deyib: "Bu gün biz kursantların həyatında olduqca əlamətdardır. Çünki ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyi bitirib Ali Hərbi Məktəbə qəbul olmuşuq. Heydər Əliyev adına Hərbi Liseydə aldığımız yüksək təhsil zabit arzumuzu reallaşdırdı. Biz Azərbaycan Ordusunun gələcək zabitləriyik. Gələcəkdə doğma Azərbaycanımızın hansı guşəsində xidmət etməyimizdən asılı olmayaraq məzunu olduğumuz Heydər Əliyev adına Hərbi Liseyin adını yüksək tutacaq, göstərilən etimadı doğruldacaq, Ali Baş Komandanımızın əmrinə hər an hazır olacağıq". Məzun olan və təhsil alan kursantlar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirən Kərim Ələkbərov söz verib ki, qarşıdakı təhsil illərində göstərilən yüksək etimadı doğruldacaqlar.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Ədib Əliyev təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

## XİN: Ermənistan rəhbərliyi mövqeyindəki qeyri-müəyyənliyə son qoymalıdır



Son zamanlar Ermənistan rəsmiləri bu ölkənin işğalçı siyasətini açıq bəyan edən çıxışları və hərəkətləri ilə gündəmə gəlirlər. Ermənistanın müdafiə naziri Azərbaycan hərbi qulluqçusunu qətlə yetirənləri şəxsən mükafatlandırır.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi "Belə bir şəraitdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qarşıdan gələn Vaşinqton görüşündən nə gözləmək olar?" sualına aydınlıq gətirib.

Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib: "Ermənistanın elə özü münaqişənin guya "Azərbaycanla Dağlıq Qarabağ arasında olması" rəvayətini yox edir. Bu ölkənin müdafiə nazirinin son hərəkətləri Ermənistanın təcavüzkar siyasətini növbəti dəfə təsdiq edir. Məhz buna görə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar işğalçı Ermənistanla əraziləri işğal olunan Azərbaycan arasında aparılır.

Münaqişənin həlli üzrə danışıqların mövzusuna gəldikdə, hər zaman qeyd etmişik və bir daha təkrar etmək istərdik ki, Azərbaycanın işğal olunmuş ərazilərinin işğalçı qüvvələrdən boşaldılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması müzakirələrin əsas mahiyyətini təşkil edir. ATƏT-in Minsk qrupunun 9 mart 2019-cu il tarixli bəyanatında müzakirələrin əsas prinsip və elementlərinə aydınlıq gətirilir. Əlbəttə, danışıqlar eyni çərçivədə və mövcud zəmin əsasında davam etdirilməlidir. Bundan öncəki görüşlərdə əldə edilmiş razılıqların, xüsusilə də Minsk qrupu həmsədrlərinin təklif etdiyi kimi, iki ölkə əhalisinin sülhə hazırlanması istiqamətində səylər davam etdirilməlidir, çünki bu, prosesin irəli aparılması baxımından vacibdir.

Vaşinqton görüşündən gözləntiyə gəldikdə isə, hər bir görüşdən gözlənti əlbəttə, substantiv danışıqlarla prosesin irəli aparılmasıdır. Xarici işlər nazirlərinin Moskva görüşünün davamı olaraq, Vaşinqton görüşündə ümid edirik ki, konkret nəticələr əldə edəcəklər. Həmçinin fikrimizcə, Ermənistan rəhbərliyinin mövqeyindəki qeyri-müəyyənliyə son qoyulmalıdır. Yalnız aydın mövqe, qətiyyət və siyasi iradə münaqişənin Ermənistan tərəfinin hər zaman dediyi kimi "eksklüziv olaraq sülh yolu ilə həllinə" töhfə verə bilər".

## Hikmət Hacıyev: Azərbaycan həqiqətlərini əks etdirən hər bir tədbir faydalıdır



Xarici ölkələrdə Azərbaycan mövzusunda təşkil olunan tədbirlər ölkəmizlə bağlı həqiqətlərin hədəflərə çatdırılması üçün çox vacibdir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Azərbaycanın Ankaradakı səfirliyində təşkil olunan konfransda iştirakçıların suallarını yüksək dəyərləndirən şöbə müdiri deyib: "Ünvanlanan suallardan da göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələri əhatə edən islahatlar, o cümlədən xarici siyasətimizin ayrı-ayrı istiqamətləri bizimlə tərəfdaşlıq etmək istəyənlərin sayını artırmaqdadır. Dövlətimizin başçısının bildirdiyi kimi, bütün sahələr üzrə səmərəli əməkdaşlıq etmək istəyən tərəflərlə əlaqə qurmaq Azərbaycan üçün prioritet məsələdir. Bir sıra ölkələr var ki, onların Ankarada diplomatik nümayəndəlikləri var, amma Bakıda yoxdur. Suallardan da göründüyü kimi, bu konfransda ölkəmizin imkanlarından, perspektivdə olan layihələrimizdən bəhrələnmək istəyən tərəflər üçün cəlbedicilik yarada bilən daha bir addım atdıq".

## Ermənistan snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Koxanəbi, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Acarlı, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Bakıda Ombudsmanların XVI Beynəlxalq Konfransı keçirilib



İyunun 18-də paytaxtımızda Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında ombudsmanların rolu" mövzusunda keçirilən konfrans Ombudsman Aparatının təşkilatçılığı və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə baş tutub.

Tədbirdə əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib.

Konfransı açan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququnun verildiyini deyib. Bildirib ki, bu gün müasir müstəqil Azərbaycan dövləti vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər edib. Bu səylər, görülən işlər nəticəsində Azərbaycan artıq dünyada öz sözü, yeri olan dövlət kimi tanınır.

"Ölkəmizdə təkcə iqtisadi, sosial sahədə deyil, eləcə də vətəndaşlarının hüquqlarının qorunması istiqamətində də uğurlu addımlar atılır. Bu sahə Azərbaycan Prezidentinin ən çox diqqət ayırdığı istiqamətlərdəndir. Azərbaycanda dövlət və vətəndaş həmrəyliyi var. Ombudsman təsisatının yaradılması da Azərbaycan dövlətinin öz vətəndaşlarının hüquqlarının qorunması məsələsinə olan diqqətinin bariz nümunəsidir",- deyə Elmira Süleymanova vurğulayıb.

Baş Nazirin müavini Əli Əhmədov insan hüquqlarının müasir cəmiyyətin ən ali dəyərlərindən olduğunu bildirərək deyib: "Azərbaycan vətəndaşlarının hüquqlarının qorunmasında ən vacib təsisatlardan biri də ombudsmandır. Sülh və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında ombudsmanların böyük rolu var".

Dayanıqlı İnkişaf Məqsədləri barədə danışan Əli Əhmədov Azərbaycan Hökumətinin bu proqramı uğurla icra etdiyini söyləyib. Qeyd edib ki, bu proqramın ən əsas qayələrindən biri sülhün təmin edilməsidir. Etibarlı sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan sülh olmur. Azərbaycan xalqı sülhsevər cəmiyyət olmasına baxmayaraq, 30 ilə yaxındır ki, işğala məruz qalıb. Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal olunub, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Milli Məclisin Sədr müavini Bahar Muradova Azərbaycanın insan hüquqları məsələlərinin müzakirə olunduğu və uğurlu nəticələrin əldə edildiyi məkan olduğunu deyib. Bildirib ki, Azərbaycan dövləti multikulturalizmi, həmrəyliyi vətəndaşlarımızın həyat tərzi kimi görür. Azərbaycan bu istiqamətdə daim dünya ölkələrini bir araya gətirir. Azərbaycan dünyaya sülh mesajı verən ölkə kimi də tanınır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinə toxunan B.Muradova deyib ki, Ermənistan dövlətinin qeyri-konstruktiv mövqeyi münaqişənin həllində əsas problemlərdən biridir. Ermənistan dövləti Metsamor AES-in fəaliyyətini davam etdirməklə dayanıqlı inkişaf məqsədlərinə zərbə vurur.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Dayanıqlı İnkişaf Məqsədləri barədə danışıb. Bildirib ki, insan hüquqları məsələsi bu proqramın əsas qayələrindən birini təşkil edir. Ombudsmanlar insan hüquqlarının qorunmasında əhəmiyyətli rol oynayır. İnklüziv cəmiyyətin yaradılmasında ombudsmanların rolu böyükdür. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlətdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, qadın və uşaq hüquqları məsələsi insan hüquqlarının əhəmiyyətli hissəsini təşkil edir. Hələ 1918-ci ildə Azərbaycanda qadınlara seçib-seçilmək hüququ verilmişdi.

Digər sahələr kimi, qadın və uşaq hüquqlarının təmin olunması da Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Azərbaycanda gender bərabərliyi ilə bağlı qanunların qəbul edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın böyük rolu olub.

Bu gün qadınlar Azərbaycanın iqtisadiyyatında, elmində və digər sahələrində əhəmiyyətli rol oynayırlar. Qadınlar sahibkarlıqla məşğul olur, ölkəmizin inkişafına töhfələrini verirlər.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Elnur Sultanov çıxış edərək 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda insan hüquqları sahəsində böyük addımlar atıldığını deyib. Bildirib ki, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarla, o cümlədən UNESKO ilə yaxından əməkdaşlıq edir. 2008-ci ildən Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan "Bakı Prosesi" bu əməkdaşlığın bariz nümunəsidir. Bu il Milli Komissiyanın yaranmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş katib Azərbaycan-UNESKO əlaqələrinin genişlənməsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın müstəsna xidmətlərini vurğulayıb. Azərbaycan UNESKO ilə birgə bir sıra Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Konfrans çərçivəsində keçirilən plenar iclasda ombudsman Elmira Süleymanova "Ədalətli sülh dayanıqlı inkişaf məqsədlərinə nail olunmasının qarantıdır", Türkiyənin baş ombudsmanı Şeref Malkoç "Yaxşı idarəçilik və bürokratiyanın Dayanıqlı İnkişaf Məqsədlərinə təsirləri", Rusiyanın İnsan Hüquqları üzrə Müvəkkilinin müşaviri Vyaçeslav Tolmaçov "Dayanıqlı İnkişaf Məqsədləri və onun indikatorları kontekstində Rusiyanın hüquq müdafiə gündəliyi", İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova "Azərbaycanda dayanıqlı inkişafa yönəlmiş islahatlar", Rusiyanın Tatarıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Sariya Saburskaya "Dayanıqlı inkişaf, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində tərəfdaşlıq: Tatarıstan Respublikası ombudsmanının təcrübəsi", Naxçıvan Muxtar Respublikası üzrə Müvəkkili Ülkər Bayramova "Naxçıvan Muxtar Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası sahəsində görülən işlər" mövzularında məruzələrlə çıxış ediblər.

Tədbir müzakirələrlə davam edib.

# “Bursagaz” və “Kayserigaz”ın “SOCAR Türkiyə”yə təhvil-təslimi başa çatdı



**Almaniyanın EWE şirkətinin Türkiyədəki törəmə müəssisələrinin SOCAR tərəfindən satın alınması prosesi yekunlaşıb. “SOCAR Türkiyə” İdarə Heyətinin sədri Vaqif Əliyev bununla bağlı deyib: “”Bursagaz”, “Kayserigaz”, “Enervis”, “EWE Enerji” və “Millenicom”, “SOCAR Türkiyə”nin rəhbərliyi altında fəaliyyətlərinə davam edərək Türkiyə və Azərbaycan iqtisadiyyatına dəyər qatacaq”.**

“EWE Turkey Holding”ə aid olan “Bursagaz”, “Kayserigaz”, “Enervis”, “EWE Enerji” və “Millenicom”un “SOCAR Türkiyə”yə satışı tamamlandı. İmzalanma mərasimində “SOCAR Türkiyə” İdarə Heyətinin sədri Vaqif Əliyev, SOCAR Türkiyə icraçı direktoru Zaur Qəhrəmanov, “EWE AG”nin icraçı direktoru Stefan Dohler, “EWE AG”nin baş maliyyə inzibatçısı Wolfgang Mücher ilə iki şirkətin rəhbər şəxsləri qatılmışdır. 2019-cu ilin yanvarında satınalma sənədləri imzalanan və hazırda bu məsələyə dair bütün razılıqların əldə olunduğu 5 şirkət bu gündən etibarən STAR neft emalı zavodu, TANAP, Petkim, “SOCAR Terminal” və Petkim Külək Enerjisi Stansiyasının (KES) da daxil olduğu “SOCAR Türkiyə”nin nəzdində fəaliyyət göstərəcək.

“SOCAR Türkiyə” İdarə Heyətinin sədri Vaqif Əliyev “Bursagaz” və “Kayserigaz”ın qrupa daxil olması ilə Türkiyədəki təbii qaz dəyər zəncirinin tamamlandığını bildirmiş və əlavə etmişdir: “Türkiyə bazarına daxil olduğumuz gündən bəri fəaliyyət göstərdiyimiz sektorun dinamikasını və məhsuldarlığını nəzərə alaraq, bütün investisiyalarımızda inteqrasiyaya önəm verdik. 12 ildir Türkiyəyə təbii qaz nəql edirik. 2013-cü ildən isə təbii qazın topdansatışını həyata keçiririk. Türkiyə və Azərbaycan dövlətlərinin ən mühüm layihəsi olan və təbii qaz nəqlini təmin edən TANAP layihəsinin ən böyük tərəfdaşıyıq. Bu gündən etibarən “Bursagaz” və “Kayserigaz”ı “SOCAR Türkiyə”nin strukturuna daxil edərək qazpaylanma sahəsində fəaliyyət göstərməyə başlayırıq. Bu böyük inteqrasiyadan meydana gələcək sinerjinin həm şirkətimiz, həm də iki qardaş ölkə iqtisadiyyatı üçün çox mühüm əhəmiyyət kəsb etdiyinə inanıram. Bizə yeni qoşulan əməkdaşlarımıza “SOCAR ailəsinə xoş gəlmisiniz” demək istəyirəm”.

“Bursagaz” və “Kayserigaz” ilə birlikdə satın alınan şirkətlərin enerji sektorunda “SOCAR Türkiyə”nin gücünü artıracağını bildirən Vaqif Əliyev daha sonra demişdir: “Biz uzun illərdir Azərbaycanda və Tbilisi istisna olmaqla bütün Gürcüstanda qazpaylanma fəaliyyətini həyata keçiririk. Müştəri məmnuniyyətini ön plana çəkərək, bu sahədə təcrübəmizi Bursa və Kayseriyə də gətirəcəyik. Əməliyyat istiqamətlərimiz arasında təbii qaz xüsusi yer tutur. Bu istiqamətdə genişlənməyi düşünürük və imkanları bundan sonra da dəyərləndirməyə davam edəcəyik”.

Satın alınan şirkətlər arasında telekommunikasiya sektoruna aid “Millenicom”un da olduğunu xatırladan V. Əliyev bu şirkətin tikintisi TANAP ilə birlikdə davam edən 1.850 kilometrlik SOCAR Fiber layihəsi ilə sinerji yaradacağına əminliyini ifadə etmişdir.

# Azərbaycanın məhkəmə-hüquq sahəsində islahatları təqdir olunur

Bu günlərdə Türkiyənin paytaxtı Ankarada Avropa və Mərkəzi Asiya hökumətləri üçün dövlət idarəçiliyi ilə bağlı “Səmərəli, hesabatlı və inklüziv institutların yaradılması” mövzusunda regional konfrans keçirilib. Avropa və Mərkəzi Asiya, o cümlədən Avropa İttifaqının üzv dövlətlərindən 450-yə yaxın nümayəndənin - yüksək səviyyəli hökumət rəsmilərinin, beynəlxalq inkişaf tərəfdaşlarının, akademik sahənin, özəl sektorun və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirak etdikləri konfransda Azərbaycanı Ədliyyə nazirinin müavini Azər Cəfərov təmsil edib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plenar müşavirə, panel diskussiyalar, təqdimatlar, dəyirmi masa və seksiya iclasları şəklində keçirilən konfransda dövlət resurslarının idarə olunması, dövlət xidmətlərinin göstərilməsi, sahibkarlarla əməkdaşlığın və iqtisadi idarəetmənin gücləndirilməsi, elektron hökumətin perspektivləri və bu kimi digər aktual mövzular müzakirə olunub.

Tədbirdə Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Siril Müller, Türkiyə Respublikasının vitse-prezidenti Yılmaz Tuna, Maliyyə və Xəzinədarlıq nazirinin müavini Osman Dinçbaş giriş nitqi ilə çıxış ediblər.

S.Müller son illər Avropa və Asiya ölkələrinin idarəçiliyin gücləndirilməsi sahəsində əldə etdikləri nailiyyətlərdən danışarkən Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarına xüsusi yer ayırıb. Bəzi kateqoriyadan olan işlərə avtomatlaşdırılmış rejimdə baxılma sisteminin tətbiq edilməsinin əhəmiyyətini vurğulayan S.Müller bunu həm də hakimlərə mürəkkəb işlər üçün daha çox vaxt ayırmağa imkan verən təqdirəlayiq hal kimi qiymətləndirib.

Konfransda ölkəmizlə bağlı üç mövzu üzrə, o cümlədən ədalət mühakiməsinin islahatı və bu sahədə göstərilən xidmətlərin yaxşılaşdırılması, monitorinq və qiymətləndirmə prosesi, neftçıxarma sahəsinin şəffaflığının yüksəldilməsi təcrübəsi barədə təqdimatlar keçirilib.

Aidiyyəti təqdimatda dövlətimizin başçısı İlham



Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, məhkəmələrə əlçatanlığın artırılması, xüsusilə yeni məhkəmə infrastrukturunun və elektron məhkəmənin yaradılması üzrə görülən genişmiqyaslı işlər, bu sahədə qanunvericilikdə mütərəqqi dəyişikliklər nümayiş etdirilib. Dövlətimizin başçısının “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanı və “Mediasiya haqqında” Qanun barədə məlumat böyük maraqla qarşılanıb.

Təqdimatlardan sonra tədbir iştirakçılarının çoxsaylı sualları ətraflı cavablandırılıb. Müzakirələr zamanı Dünya Bankının rəsmiləri konfrans iştirakçılarına nümayiş olunan yenilikləri Azərbaycana səfər edərkən yerində müşahidə etdiklərini bildiriblər.

Tədbir çərçivəsində Dünya Bankının Cənubi Qafqaz ölkələri üzrə regional ofisinin rəhbəri Sebastian Molineus, Türkiyənin Ədliyyə nazirinin müavini Selahaddin Menteş, Gürcüstan, Qazaxıstan, Albaniya və İtaliyanın nümayəndə heyətləri ilə fikir və təcrübə mübadiləsi aparılıb.

# Görkəmli mühəndis və ictimai xadim Kamil Akimov vəfat edib



*2019-cu il iyunun 16-da tanınmış ictimai xadim, Azərbaycan neft emalı sənayesinin təşkilatçılarından biri, Azərbaycanın Əməkdar mühəndisi Akimov Kamil Əlisoltan oğlu 92 yaşında Bakı şəhərində vəfat etmişdir.*

*Kamil Akimov 1927-ci il iyulun 11-də Sabirabad şəhərində sənətkar ailəsində anadan olub. 1947-ci ildə Bakı Neft Texnikumunu fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Azərbaycan Sənaye İnstitutunda davam etdirib, eyni zamanda, Neftayırma zavodunda operator köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. 1952-ci ildə ali təhsilini neft və qazın emalı üzrə mühəndis-texnoloq ixtisası üzrə başa vurduqdan sonra zavodun ən məhsuldar qurğularından birinə rəis təyin edilib.*

*Kamil Akimov istehsalatda çalışmaqla yanaşı, elmi axtarışlarını davam etdirib, neft emalı sənayesi sahəsində 30-a yaxın təklifin, 10-a yaxın ixtiranın müəllifi olub. Bu illər ərzində o, neftayırma sənayesi işçiləri, texnikum və institut tələbələri üçün dərsliyin və bir neçə kitabçanın çapdan çıxmasına nail olub.*

*O, 1962-ci ildə zavodun baş mühəndisinin müavini, 1963-cü ildə Azərbaycan KP MK, respublika Nazirlər Soveti yanında yeni təşkil olunmuş Partiya Dövlət Nəzarət Komitəsinin neft və kimya sənayesi şöbəsinin rəis müavini, 1964-cü ildə isə Ə.Qarayev adına neft emalı zavoduna direktor vəzifəsinə təyin edilib.*

*Kamil Akimov zavoda rəhbərlik etdiyi illərdə qurğuların yeni texnologiya əsasında təkmilləşdirilməsi, istismarı və təmiri işləri ilə məşğul olaraq, qısa müddətdə zavodu qabaqcıl sənaye müəssisələri sırasına çıxarmasına nail olub. Məhz bu uğurlarına görə o, “Şərəf Nişanı” ordeninə, “Əməkdar mühəndis” fəxri adına layiq görülüb və daha məsul vəzifələrə irəli sürülüb.*

*Kamil Akimov 1967-ci ildə Azərbaycan SSR neftayırma sənayesi nazirinin 1-ci müavini, 1970-ci ildə isə Azərbaycan SSR neftayırma sənayesi naziri təyin edilib. 1970-80-ci illərdə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə neftayırma zavodlarında aparılan yenidənqurma işlərində Kamil Akimovun xüsusi xidmətləri vardır. O dövrdə Azərbaycana yüksək məhsuldarlığa malik iki ELOU-AVT-6 qurğusu gətirilib, Bakı neftayırma zavodu yeni texnologiyaya əsaslanan katalitik riforminq qurğusu ilə təchiz edilib, neftayırma zavodları üçün möhkəm maddi-texniki baza yaradan yeni obyektlər tikilib istifadəyə verilib.*

*Kamil Akimov 1970-80-ci illərdə neft emalı sənayesində göstərdiyi xidmətlərə görə “Oktyabr İnqilabı”, “Qırmızı Əmək Bayrağı” ordenləri, Azərbaycan Ali Sovetinin Fəxri Fərmani ilə təltif edilib, 2 çağırışda Ali Sovetin deputatı seçilib. Kamil Akimov zəngin təcrübəsi, dəyərli məsləhətləri ilə təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də neft emalı sənayesinin inkişafına mühüm töhfələr verib. O, ayrı-ayrı illərdə İraqda və Kubada neft emalı zavodlarının yenidən qurulmasında sovet mühəndislərinin işinə birbaşa rəhbərlik edib, həmin ölkələrin fəxri fərmanlarına və yüksək mükafatlarına layiq görülüb.*

*Kamil Akimov ömrünün ahıl vaxtlarında da neft emalı sənayesinə töhfələr verməkdə davam edib. SOCAR-ın “Ekol Mühəndislik Xidmətləri” Qapalı Səhmdar Cəmiyyətində baş direktorun məsləhətçisi kimi fəaliyyət göstərən görkəmli mühəndisin neft emalı prosesində formalaşan neftşlamın emalı və zərərsizləşdirilməsi, sənaye çirkab sularının təmizlənməsi texnologiyalarının təkmilləşdirilməsinə dair verdiyi təklifləri uğurla həyata keçirilir. Kamil Akimov daim öz həyat və əmək təcrübəsini gənclərlə bölüşmüş, peşəkar mühəndis və texnoloq kadrlarının yetişdirilməsində mühüm rol oynamışdır.*

*Görkəmli mühəndis və ictimai xadim Kamil Akimovun unudulmaz xatirəsi daim qəlblərdə yaşayacaq, onun neft emalı sənayesinə gətirdiyi yeniliklər bundan sonra da iqtisadiyyatımızın inkişafına töhfələr verməkdə davam edəcəkdir.*

*Allah rəhmət eləsin!*

**Rövnəq Abdullayev**
**Xoşbəxt Yusifzadə**
**Süleyman Qasımov**
**Elşad Nəsirov**
**David Məmmədov**
**Mikayıl İsmayılov**
**Bədəl Bədəlov**
**Xalik Məmmədov**
**Rəhman Qurbanov**
**Rəfiqə Hüseynzadə**
**Tofiq Qəhrəmanov**
**Bəhram Hüseynov**
**Yaşar Lətifov**
**Cahangir Əliyev**
**Elmar Qasımov**
**Elman İsmayılov**
**Ramil Əliyev**

# BAKI KONQRES MƏRKƏZİNDƏ MƏZUN GECƏSİ KEÇİRİLİB



İyunun 15-də Bakı Konqres Mərkəzində Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gələcəyə doğru" adlı məzun gecəsi keçirilib. Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Təhsil, Gənclər və İdman nazirliklərinin məsul işçiləri iştirak ediblər. Qonaqlar əvvəlcə foyedə gənclər təşkilatlarına məxsus müxtəlif məzmunlu stendlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın məzunlara təbrik məktubunu iştirakçıların diqqətinə çatdırıb.

Sonra Azərbaycanda təhsilə, gənclərə və idmana dövlətimiz tərəfindən qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Çoxsaylı məzunların qatıldığı tədbir maraqlı konsert proqramı ilə davam edib.

# Tələbələr arasında intellekt olimpiadası: qaliblər müəyyənləşdi

**İyunun 15-də LEAD Education Təhsil və İnnovasiya Mərkəzinin, Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilati dəstəyi və "Bank of Baku"nun baş sponsorluğu ilə "Tələbələr arasında intellekt olimpiadası" layihəsinin mükafatlandırma mərasimi keçirildi.**




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş olimpiadanın mükafatlandırma mərasimi "Nizami" Kino Mərkəzində təşkil olundu. Mərasim Azərbaycan bayrağını özündə ehtiva edən rəqqasların rəqsi ilə başladı. Daha sonra Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Gənclər və İdman nazirinin müavini İntiqam Babayev layihəyə uğurlar arzu etdi. O, ulu öndər Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan və cənab Prezident İlham Əliyevin yürütdüyü uğurlu gənclər siyasətindən söhbət açdı.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov bugünkü Azərbaycan gəncliyindən söhbət açaraq intellektual gənclərin ölkəmizdə böyük bir orduya sahib olduğunu vurğuladı. Qeyd etdi ki, Prezident İlham Əliyevin bildirdiyi kimi, işlərimizi, planlarımızı hər zaman insan kapitalı üzərində qurmalıyıq.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Faiq Məmmədov bu gün gənclərin sağlam gələcək uğrunda birləşmələrini, bu cür intellektual oyunlarda bir araya gəlmələrini mühüm hadisə adlandırdı.

Layihənin icraçı direktoru Xəyal İbrahimzadə çıxış edərək şirkətlərə və qonaqlara layihəyə dəstək olduqları üçün təşəkkür etdi. Statistik məlumatları qonaqların diqqətinə çatdıraraq qeyd etdi ki, ümumilikdə, layihədə 23 universitetdən 10254 nəfər iştirak edib, bunlardan 450 nəfəri finala vəsiqə qazanıb.

Sonra LEAD Education Təhsil və İnnovasiya Mərkəzinin həmtəsisçisi Fəttah Fəttayev, bir sıra universitetlərin rəhbər şəxsləri və rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış etdilər.

Daha sonra mükafatlandırma mərasimi başladı. 300 nəfərə endirim kuponları, sertifikatlar və kitablar hədiyyə edildi. İlk 100 yerin qalibləri isə sponsorlardan qiymətli hədiyyələr qazandılar.

Qeyd edək ki, final mərhələsində iştirak edən hər kəs LEAD Education Təhsil və İnnovasiya Mərkəzi tərəfindən magistratura, MİQ imtahanlarına hazırlıq və xarici dil kurslarının istənilən birindən 30-100 faiz endirim qazandılar.

Layihədə birinci yeri Xəzər Universitetinin birinci kurs tələbəsi, Ağdaş rayonundan olan gənc Tamerlan Abdullayev tutdu. Gənclər və İdman nazirinin müavini İntiqam Babayev qalibin mükafatlarını təqdim etdi.

İkinci yeri Cəbrayıl rayon sakini, ADA Universitetinin birinci kurs tələbəsi Elvin Quluzadə tutdu. Ona mükafatları YAP Gənclər Birliyinin sədri Seymur Orucov və "İSMA Bike" şirkətinin rəsmi nümayəndəsi təqdim etdi.

Üçüncü nəticəni isə Bakı Ali Neft Məktəbinin tələbəsi Əsədullah Camalov göstərdi. Onu ATGTİ-nin sədri Faiq Məmmədov mükafatlandırdı.

Sonda finalçılarla xatirə şəkli çəkdirildi.

***Cavid Əkbərov,***
***"İki sahil"***

# "Şahdəniz" təbii qazı TANAP-la Avropa sərhədinə çatdırılıb



**Ötən il yanvarın 23-də TANAP boru kəmərinə Gürcüstan-Türkiyə sərhədindən daxil olan "Şahdəniz" qazı bu il iyunun 15-də tarixi bir gündə - Milli Qurtuluş Günündə Avropa sərhədinə çatdırılıb.**

TANAP

AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR məlumat yayıb.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə nəql edən TANAP boru kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və 3500 kilometrlik Cənub Qaz Dəhlizinin birləşdirici halqasını təşkil edən TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düymlük hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düymlük hissəsinin uzunluğu isə 480 kilometrdir. Mərmərə dənizi boyunca isə boru kəmərinin diametri 36 düym təşkil edir. İki fazada icra olunan layihə çərçivəsində boru kəmərinin uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometrdir.



Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlayıb. Boru kəməri ilə cari ilin 5 ayında Türkiyəyə 790 milyon kubmetr Azərbaycan təbii qazı nəql edilib. Bu vaxtadək isə Türkiyə TANAP-la 1,9 milyard kubmetr Azərbaycan qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetr, cari ilin axırına kimi 4 milyard kubmetrə çatacaq. 2021-ci ildə isə bu həcm 6 milyard kubmetr təşkil edəcək. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin isə 99 faizi başa çatıb. Boru kəməri bu il TAP-a birləşmək üçün hazır olacaq. TANAP layihəsi üzrə kapital xərcləri 8 milyard dollardır ki, bu vaxtadək təxminən 6 milyard dollar xərclənib.

TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 20 şəhər və 67 vilayətindən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır. "Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

# "SOCAR Petroleum" sosial şəbəkələrdə

**"Müştərilərin maraqlarını daim diqqət mərkəzində saxlayan "SOCAR Petroleum" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ünsiyyət prosesinin zamanın tələblərinə uyğun və rahat olması, əks əlaqənin qurulması, müraciətlərin və sualların operativ şəkildə cavablandırılması üçün sosial şəbəkələrdən səmərəli və aktiv istifadə edir. Bu sahədə QSC-nin ana prinsiplərindən biri də daxil olan sorğuların 100 faizini cavablandıraraq biznes fəaliyyətinin sosialyönümlü və məsuliyyətli olmasının təmin edilməsidir".**

Bu barədə "İki sahil"ə "SOCAR Petroleum" QSC-dən bildirilib.

Qeyd edilib ki, qurum "SOCAR" brendinin marketinqi çərçivəsində müştərilərin maraqlarını nəzərə alaraq mütəmadi olaraq aksiyalar, kampaniyalar, müsabiqələr, maarifləndirici və digər tədbirlər həyata keçirir və sosial şəbəkələrdə olan resursları vasitəsilə məlumat verir.

Hazırda QSC-nin aşağıdakı internet resursları fəaliyyət göstərir:




Rəsmi sayt http://socar-petroleum.az/

İnstagram səhifəsi www.instagram.com/socar-petroleum

Facebook səhifəsi www.facebook.com/SOCAR-PETROLEUMofficial/

Youtube kanalı www.youtube.com/channel/UCCJ-JVR7ZoHRKzfP9lleKg

# Erməni lobbisinin çöküşü Fransadan başladı

*Erməniəsilli fransalı politoloq Qaids Minasyan:*

**Fransada baş verən bu biabırçılıqlara görə Ermənistan rəhbərliyi və erməni lobbisi məsuliyyət daşıyır**



**Son bir neçə ildə Fransanın bəzi inzibati rayonları Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan qondarma "DQR" ilə əlaqələr yaradaraq qarşılıqlı səfərlər də edirdilər. Lakin son iki həftə ərzində Fransa ədliyyəsi qondarma qurumla əlaqələr quran inzibati rayonların "dostluq xartiyaları"nı qeyri-qanuni elan edərək bu prosesləri hüquqi qanun pozuntusu elan etməklə erməni lobbisinin kifayət qədər güclü olduğu Fransadan Ermənistana ağır siyasi zərbələr vurdu.**

Xatırladaq ki, Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub. Fransadakı erməni diasporunun media orqanlarından olan "Nouvelles d'Arménie" saytı bu barədə yaydığı məlumatda ermənilərin böyük məğlubiyyətlə üzləşdiyini etiraf edir.

Erməni mətbuatının, həmçinin Fransanın nüfuzlu KİV-lərinin də yazdıqlarına görə, Qrenobl məhkəməsinin 4 "dostluq xartiyası"nı ləğv etməsi məlumatı artıq erməni ictimaiyyətində ciddi təşviş yaradıb. Məlumatlarda bildirilir ki, Qrenobl inzibati məhkəməsi iyunun 11-də Drom departamentinin özü, həmçinin bu departamentdə yerləşən Valans, Bur-le-Valans və Bur-dö-Peaj kommunaları ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış dörd xartiyanı ləğv edib. Bu "xartiyalar"ın ləğv olunmasına səbəb kimi onların Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə uyğun gəlməməsi, həmçinin Fransanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi bitərəfliyini şübhə altına alması göstərilir.

Sözsüz ki, hadisələrin bu istiqamətdə inkişafında Azərbaycan diplomatiyasının apardığı məqsədyönlü siyasətin rolu böyükdür. Amma unutmayaq ki, ictimaiyyət, o cümlədən fransız cəmiyyəti həqiqəti biləndə beynəlxalq hüquqa üstünlük verir və ədalətin bərpasına çalışır. Heç şübhəsiz, Fransadakı erməni lobbisinin və ümumiyyətlə, erməni fırıldaqçılığının izi bu müqavilələrdə aydın görünür.

Əslində, xarici dövlətlə dostluq və əməkdaşlıq edən şəhər və kəndlər əsasən böyüklüyünə, tanınmasına görə seçilir. Konkret Fransanın kiçik şəhərlərinin belə müqavilələr bağlaması isə əslində, erməni kələyinin nəticəsidir. Amma Azərbaycan artıq bu cür erməni fırıldaqlarının qarşısını uğurla alır.

Təbii k, bu ləğvetmələr Azərbaycanın işğal edilmiş torpaqlarında formalaşdırılmış qondarma qurumla həmrəylik nümayiş etdirmək naminə bitərəflik prinsiplərinə qəsdən məhəl qoymamaq yolunu seçən Fransanın yolunu azmış bəzi yerli seçkili və hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedentdir.

Fransanın son addımları bir daha sübut etdi ki, suveren dövlətin milli birliyini və ərazi bütövlüyünü pozmaq məqsədi daşıyan, eyni zamanda, qovma və ya etnik təmizləmə həyata keçirməklə bir araya sığmadığı yenidən təsdiqlənmiş "xalqların öz müqəddəratını təyinetmə hüququ"ndan istifadəyə icazə verməyən beynəlxalq hüququn prinsiplərinə hörmət etmək lazımdır. Eyni zamanda işğal olunmuş ərazilərdən zorla qovulmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını tələb edən insan hüquqları prinsipinə və beynəlxalq humanitar hüququn prinsiplərinə hörmət edilməli, onlar öz yurdlarına, evlərinə geri qaytarılmalı, kəndlər və şəhərlər ən qısa zamanda bərpa edilməlidir.

Bu şərtlər altında seçkili və ya yerli hakimiyyət orqanları tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış və Fransa tərəfindən tanınmayan qeyri-qanuni separatçı qurum olan qondarma "Dağlıq Qarabağ Respublikası"nı təmsil edən yerli orqanlarla "dostluq xartiya"larının imzalanması Fransanın beynəlxalq fəaliyyətinin ardıcıllığını ciddi şəkildə sarsıdır və xalqlar arasında qarşılıqlı anlaşmanın təməlini, o cümlədən beynəlxalq diplomatik münasibətlərin müsbət inkişafını zərbə altında qoyur.

Qondarma "xartiya"ların ləğv edilməsi Azərbaycan dövlətinin ciddi siyasi fəaliyyətinin nəticəsidir. Ötən müddətdə erməni lobbisinin daha fəal olduğu Fransada bu ölkənin siyasi qurumları ilə səmərəli iş aparıldı. Nəticə isə uğurlu alındı. Ölkəmiz problemin hüquqi müstəvidə və obyektiv şəkildə həllinə nail oldu. Bu uğurların başqa mühüm tərəfləri də var. Bu onun yeni hüquqi presedent yaratmasıdır. Yeni Fransa məhkəmələrinin öz qərarlarını imzalanmış sənədin qeyri-qanuni, heç bir hüquqi qüvvəsi olmayan və bu ölkənin beynəlxalq öhdəliklərinə zidd olması ilə əsaslandırmaları bu hüquqi presedentin digər bənzər hallara da şamil edilməsi təcrübəsini yaradır. Artıq bu, digər ermənipərəst icmalara və şəhər meriyalarına dərs oldu. Bundan sonra nəinki Fransada, hətta digər Avropa Birliyi ölkələrində də bənzər hadisələr baş verərsə, bu, artıq hüquqi pozğunluq sayılacaq və presedent kimi qəbul ediləcək.

Təbii ki, Fransa məhkəmələrinin bu ədalətli qərarları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya sonuncu səfərindən sonra reallaşdı. Bu, bir daha göstərir ki, Fransa siyasi dairələrinin və ədliyyəsinin Azərbaycanın haqlı mövqeyini müdafiə etmələri üçün burada geniş siyasi iş aparılıb hökm sürüb. Azərbaycan tərəfi bununla bir daha Fransa hökumətinin diqqətinə çatdırıb ki, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə yönələn hər hansı hərəkət yolverilməzdir.

Azərbaycan həm hüquqi müstəvidə, həm də beynəlxalq siyasi və iqtisadi təsir imkanları vasitəsilə istənilən qeyri-qanuni, anti-Azərbaycan xarakterli addımların qarşısını almaq gücündədir. Fransa son illər ərzində Azərbaycanla siyasi və iqtisadi əlaqələrini gücləndirib və bu amil Prezident Makron başda olmaqla Fransa hakimiyyətinin mövqeyinə öz təsirini göstərməyə bilməz.

Bu arada bir maraqlı nüansı da xatırladaq ki, radikal anti-Azərbaycan və antitürk mövqeyə malik olan erməni əsilli Fransa politoloqu Qaids Minasyan da bu həqiqətləri etiraf etməklə yanaşı, bütün baş verənlərə belə münasibət bildirib ki, Fransada baş verən bu biabırçılıqlara görə Ermənistan rəhbərliyi və erməni lobbisi məsuliyyət daşıyır. Onun sözlərinə görə, erməni lobbisinin fəaliyyətində dəyişiklik olmayacağı təqdirdə bu proses davamlı xarakter daşıyacaq.

Qeyd edək ki, Minasyan Fransanın nüfuzlu "Le Mond" qəzetinin elektron versiyasında rəhbər işçilərdən biridir, Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqaz üzrə ekspert qismində çıxış edir. Fransada yaşasa da, tez-tez Ermənistana gedib gəlir, aprel döyüşlərindən sonra Fransa mətbuatında Azərbaycana qarşı çirkin kampaniya təşkil edənlərdən biri olub.

**Elçin Zaman,**
***"İki sahil"***

## "Fransaya başa salmalıyıq ki..."



**Vəli İlyasov**

### ERMƏNİ DEPUTATLAR QORXDUQLARINI ETİRAF ETDİLƏR

Azərbaycan diplomatiyası Ermənistanın ölkəmizə qarşı yüz illərlə qurduğu "barrikadaları" sıradan çıxarmaqda davam edir.

Son günlər Fransa məhkəmələrinin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan qondarma "DQR"-in bəzi "subyektləri" ilə imzalanmış "dostluq xartiyaları" ilə bağlı qərarlarının İrəvanda yaratdığı siyasi çaxnaşma davam edir. Əvvəlcə Serji-Pontuaz məhkəməsinin qərarı ilə Arnuvil şəhərinin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə imzaladığı "Dostluq haqqında xartiya" ləğv edildi. Eyni qərarla Arnivul şəhəri ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "dostluq xartiyası" da ləğv edildi. Daha sonra Qrenobl məhkəməsi eyni xarakterli dörd "dostluq xartiyası"nı ləğv etdi.

Məlumatlı mənbələr xəbər verir ki, Ermənistan üçün ağır zərbə olan bu qərarlardan sonra İrəvanda siyasi qüvvələr arasında ciddi çaxnaşma yaşanır. Xüsusilə bunun digər Avropa ölkələri üçün presedent olacağı qorxusu böyükdür. Fransa məhkəmələrinin qərarlarının Ermənistan parlamentində müzakirəsi zamanı da bu qorxular dilə gətirilib.

Müzakirələr zamanı Ermənistan hakimiyyəti, xüsusilə Xarici İşlər Nazirliyinin fəaliyyəti sərt şəkildə tənqid olunub. Çıxış edən deputatlar Azərbaycan diplomatiyası qarşısında məğlubiyyətə uğradıqlarını etiraf ediblər.

"İşıqlı Ermənistan" fraksiyasının deputatı Arman Babacanyan bildirib ki, Fransa məhkəmələrinin qərarları Ermənistan Xarici İşlər Nazirliyinin fəaliyyətsizliyinin nəticəsidir."Belə qərarların veriləcəyi proqnozlaşdırılırdı. Çünki Azərbaycan Fransada genişmiqyaslı iş aparır, biz isə heç bir fəaliyyət göstərmirik. Hər şeydə tamamilə diasporun potensialına ümid edirik, gözləyirik ki, diaspor nəsə edəcək. Lakin onlar yalnız vəkil tapa bildilər, vəkilin də əlindən heç nə gəlmədi", - deyə erməni deputat təəssüflə qeyd edib.

Babacanyan vurğulayıb ki, bu qərarların ciddi nəticələri olacaq və Avropa İttifaqının üzv ölkələrinin digər şəhərləri üçün nümunə xarakteri daşıyacaq, bu isə Ermənistana baha başa gələ bilər.

Müzakirələrdə iştirak edən xarici işlər nazirinin müavini Qriqor Ovannisyan deputatları sakitləşdirmək üçün məhkəmə qərarlarının perspektivdə heç bir nəticəsinin olmayacağını iddia edib. Onu da etiraf edib ki, "Ermənistanın Fransanın müstəqil məhkəmələrinin qərarlarını dəyişdirməyə heç bir əsaslı gücü yoxdur". Lakin deputatlar Ermənistan XİN-in nümayəndəsinin saxta bəraətini qəbul etməyiblər.

A.Babacanyan Ermənistanın bu qərarlara qarşı mümkün addımlar atmasının vacibliyindən də danışıb. "Fransaya başa salmalıyıq ki, bu, diasporun məsələsi deyil, birbaşa antiermənistan qiymətə malikdir", - deyə o bildirib. Ancaq onun sözləri ciddi qəbul edilməyib və mənasız fikir kimi qarşılanıb.

Parlamentin xarici əlaqələr üzrə komissiyasının sədri Ruben Rubinyan isə bildirib ki, Fransa məhkəmələri sərbəst olduqlarına görə onların qərarlarına müdaxilə mümkünsüzdür: "Burada söhbət məhkəmə qərarları yox, onların nəticələrindən gedir. Razılaşın ki, Ermənistanda hansısa ölkənin səfirliyinin əməkdaşının erməni məhkəmələri və ya hakimləri haqqında danışması gülməli olardı. Düşünürəm ki, Fransada məhkəmələrin müstəqil olduğuna etiraz etməyəcəksiniz, lakin problemin olduğunu hamımız bilirik və buna uyğun iş aparılmalıdır".

Göründüyü kimi, Fransa məhkəmələrinin qərarları Ermənistanda "soyuq duş" effekti yaradıb və ermənilərin özlərinin də etiraf etdikləri kimi, burada Azərbaycan diplomatiyasının fəaliyyəti həlledici rola malik olub.

*Mehriban Vəliyeva:*

# Beynəlxalq təhsil arenasında milli təhsil brendi olmağı məqsəd seçmişik

**Təhsil sahəsində həyata keçirilən davamlı islahatlar nəticəsində ölkəmizdə təhsilin forma və məzmunu tamamilə yeniləşir. Akademik Zərifə Əliyeva adına lisey ölkənin təhsil uğurları ilə seçilən məktəblərindəndir. Təhsilin inkişafı üçün burada səmərəli tədbirlər həyata keçirilir, layihələr reallaşdırılır. Məktəbin direktoru, filologiya üzrə fəlsəfə doktoru, əməkdar müəllim Mehriban Vəliyeva İKİSAHİL.TV-yə müsahibəsində bu barədə danışıb.**



*- Mehriban xanım, Akademik Zərifə Əliyeva adına liseydə tədris təmayüllər üzrə aparılır. Şagirdlərin istedadları necə müyyən olunur? Burada istək nəzərə alınır, yoxsa şagirdin qabiliyyəti?*

- Akademik Zərifə Əliyeva adına liseydə 631 şagird təhsil alır. IX-XI sinifləri əhatə edən təhsil ocağı Azərbaycan və rus bölmələrində təmayüllər üzrə fəaliyyət göstərir. Liseydə siniflərin təmayüllər üzrə komplektləşməsi şagirdlərin maraq göstərdikləri fənləri daha dərindən mənimsəmələrinə imkan verir. Tədris ocağında fundamental və tətbiqi elmlərin tədrisi, bilik yarışlarının təşkili, beynəlxalq layihələrdə və olimpiadalarda iştirak prioritet məsələlərdən hesab olunur. Pedaqoji kollektiv şagirdlərdə müstəqil düşünmək, mühakimə yürütmək, nəticə çıxarmaq, tədqiqat aparmaq kimi bacarıq və vərdişlərin formalaşmasını əsas tutur. Əsas məqsədimiz milli mənəvi dəyərlərə, yaradıcı təfəkkür və məntiqi yanaşmaya malik, cəmiyyətə yararlı, hərtərəfli inkişaf etmiş layiqli vətəndaş, dünyanın qabaqcıl və nüfuzlu ali təhsil müəssisələrində təhsil ala biləcək gənclər yetişdirməkdir.

Liseyə qəbul müsabiqə yolu ilə keçirilir və siniflər təmayüllər - riyaziyyat-texniki, riyaziyyat-iqtisadiyyat, humanitar və təbiət fənləri üzrə komplektləşdirilir. Şagirdlərin bilik səviyyəsini yoxlamaq üçün kiçik və böyük summativ qiymətləndirmə testləri, mövzu və bölmələr üzrə şifahi sorğu, müxtəlif fənlər üzrə layihə işlərinin müdafiəsi və sinifdənsinfə keçid imtahanları keçirilir. Qiymətləndirmə 100 ballıq sistemlə aparılır. Birinci və ikinci yarımilin sonunda şagirdlər yekun imtahanı verirlər. Bundan başqa, şagirdlərin bilik səviyyəsini nəzarətdə saxlamaq üçün hər ay Liseydaxili Qiymətləndirmə Testləri (LQT) keçirilir. Testlərə hazırlıq məqsədi ilə xüsusi seminarlar, məsləhət saatları təşkil olunur. LQT-nin nəticələrinə əsasən hər bir sinfin, müəllimin, şagirdin müvəffəqiyyət faizləri hesablanır, reytinq cədvəlləri hazırlanır və yüksək bal toplamış şagirdlər stimullaşdırılır.

Liseydə 33 sinif otağı, multimedia və fənn kabinetləri, fizika və kimya laboratoriyaları, dörd kompyuter otağı, kitabxana, yeməkxana, idman zalı fəaliyyət göstərir. Sinif otaqları, laboratoriyalar və idman zalı müasir avadanlıqla təchiz olunub. Bununla yanaşı, liseyin İnformasiya-Resurs Mərkəzi, yeni dərslik, elmi və bədii ədəbiyyatla zəngin kitabxanası vardır.

Liseydə böyük oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirə salonu yaradılıb. Salonda böyük alimin zəngin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən kitab və jurnallar, fotoşəkillər nümayiş olunur.

*- İKT əsrində yaşayırıq. Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi çox önəmlidir. Şagirdlər İKT-dən nə dərəcədə yararlanırlar?*

- Liseydə informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq edilir, bütün fənn müəllimlərinin və şagirdlərin keyfiyyətli təhsil prosesi üçün hərtərəfli imkanlar yaradılıb. Liseydə İKT üzrə savadlılığın artırılması məqsədilə mütəmadi treninqlər keçirilir. Şagirdlər müəllimlərlə daim onlayn əlaqədədirlər. Liseydə elektron dərslər qurulur, müəllimlərin tapşırıqları elektron poçt vasitəsilə təhlil edilir. Elektron “qaynar xətt” mövcuddur ki, bu da şagirdlərdə fikirlərini müstəqil ifadə etmək imkanı yaradır, rəhbərliyə daxil olan şikayət və təkliflər obyektiv araşdırılır. Liseydə İKT əsaslı innovativ tədris otağı yaradılıb. Nəticədə yalnız informatika dərsləri deyil, digər fənlər də İKT-dən geniş istifadə olunmaqla tədris edilir.

*- Liseyin yaranmasından 11 il vaxt keçib. Liseyin nailiyyətləri barədə nə deyərdiniz?*

- Akademik Zərifə Əliyeva adına lisey 2008-ci ildən fəaliyyət göstərir. Azərbaycanın görkəmli alimi Zərifə xanım Əliyevanın 85 illik yubileyi ərəfəsində istifadəyə verilən lisey 9-11-ci sinifləri əhatə edir. Qəbul imtahanları müsabiqə yolu ilə aparılır. Bütün istiqamətlərdə təmayüllər üzrə akademik bilik verən liseydə şagirdlərin hərtərəfli inkişafı üçün hər cür şərait var. Lisey 2018-2019-cu tədris ilini də uğurla başa vurdu. 631 şagirdi olan lisey 181 məzun yola saldı. Respublika fənn olimpiadasında 16 şagird qızıl, gümüş, bürünc medal qazanmışdır(1 qızıl, 9 gümüş, 6 bürünc). Qəbul imtahanları hələ başa çatmasa da 181 məzunun 41-i 600-dən yuxarı bal toplayıb. Liseyin nailiyyətləri çoxdur. AMEA Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun keçirdiyi “Mən XXI əsrdə Y.Məmmədəliyevin davamçısı olmaq istəyirəm” müsabiqəsində 9 şagirdimiz sentyabrda keçiriləcək final turuna keçid hüququ qazanmışdır. May ayında Tbilisidə keçirilən “World Scholar`s Cup” (WSC) beynəlxalq olimpiadasında iştirak edən şagirdlərimiz müxtəlif ölkələrin 100 komandası arasında seçilərək 2-ci yerə layiq görüldülər. Ayrı-ayrı nominasiya üzrə 3 kubok, 25 qızıl və 45 gümüş medalla təltif olunmuşlar.

*- Göründüyü kimi, Akademik Zərifə Əliyeva adına liseyin şagirdləri məktəbin adını doğruldurlar. Şagirdlərin uğurları biri-birini əvəz edir...*

- Elədir. Bu gün Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə təkcə savadlı, yüksək bilikli gənclər deyil, eyni zamanda, vətənpərvər, azad, qanuna və hüquqa hörmət edən, dünyagörüşlü vətəndaş yetişdirməkdir. Bu prinsiplər bizim üçün əsasdır. Məktəbimizin şagirdlərinin səylə çalışması, qazandığı uğurlar bizim sevincimizi qat-qat artırır. Şagirdlərimiz bütün müsabiqələrdə iştirakdan çəkinmirlər. “Ədəbiyyat biliciləri” müsabiqəsində 11-ci sinif şagirdi Nəzrin Məmmədova I yerə layiq görülmüşdür.

Ötən ildən robototexnikanı tədrisin bir komponenti kimi götürən lisey bu sahədə də uğurlara imza atır, şagirdləri mühəndislik və texnologiya istiqamətində düşündürməyi gələcək üçün vacib sayır.





Oktyabr ayında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyası və Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən II Robot Olimpiadasında şagirdlərdən Naim Xuduzadə və Ruslan Bayramov III yerə layiq görülmüşlər.

Şagirdlərimiz Rumıniyada keçirilən İNFOMATRIX layihə müsabiqəsində robototexnika sahəsində 1 qızıl, 2 gümüş medal qazanmışlar (Qasım Qasımzadə - qızıl, Yusif Qasımzadə və Nəcəf Məmmədov - gümüş).

III Robot Olimpiadasında şagirdlərdən Ruslan Bayramov, Elvin Bilalov, Cabir Tahirov II yerə layiq görülmüşlər.

Təhsil Nazirliyinin “STEM-təhsil” layihəsində 3 müəllimimiz iştirak etmişdir. Bu layihənin liseyin təhsilinə yeni bir impuls verəcəyinə inanırıq.

*-Liseyin təhsil üçün prioritet saydığı istiqamətlərdən biri də layihələrlə işdir...*

- Şagirdlərimiz beynəlxalq layihələrdə iştirak etməyi sevirlər. Onlarda bu sevgini müəllimləri yaradır. Sabahın Alimləri müsabiqəsində 7 layihə ilə 3 qızıl, 1 gümüş və 3 bürünc medala layiq görülmüşük. Amerikada keçirilən İntel İSEF beynəlxalq yarışında şagirdlərimiz ölkəmizi 3 layihə ilə təmsil etmişlər. Layihələrinə görə X sinif şagirdi Aydan Qədirzadə “Ricoh” şirkətinin sertifikatına, 9-cu sinif şagirdi Nihad Həmidli və 11-ci sinif şagirdi Nofəl Qədimli isə Yale Elmi və Mühəndislik birliyi tərəfindən 2019-cu ilin mükafatına layiq görülmüşlər.

Dekabrda Bakı Mühəndislik Universitetinin keçirdiyi, tələbə və şagirdlərin qatıldıqları IV Qış Elm Festivalında şagirdlərimiz Nofəl Qədimli və Zəhra Qədimzadə “Clik Enerji” layihəsi ilə II yerə layiq görülmüşlər.

10-cu sinif şagirdi Arif Qəhrəmanlı Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən “İdeya var” II ümumrespublika elm-yaradıcılıq müsabiqəsində III yerə layiq görülmüşdür. Arifin bu layihəsi, həmçinin “Climatelaunchpad Azərbaycan 2018” startap proqramının ölkə finalına keçmiş 13 layihədən biri olmuşdur.

May ayında Türkiyədə keçirilən “MEF Təhsil Qurumları, Araşdırmalar” layihə müsabiqəsində iştirak edən 11-ci sinif şagirdi Tərlan Alışanlı və 10-cu sinif şagirdi Məryəm Hacıyeva 750 layihə arasında III yeri qazanmışlar.

9-cu sinif şagirdləri Cəmilə Əlizadə və Ələsgər Tarverdiyev Avrasiya Patent Təşkilatı tərəfindən keçirilən yarışda layihələri ilə I yerə layiq görülmüşlər.

İyun ayında “İnnoFest Village” çərçivəsində keçirilən pit-chig müsabiqəsində də şagirdlərimiz uğura imza atdılar. ABŞ səfirliyinin, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə keçirilən “TechFest Baku” müsabiqəsində şagirdlərimizdən Aydan Qədirzadənin layihəsi I yerə, Nofəl Qədimov və Zəhra Qasımzadə isə III yerə layiq görüldülər.

*-Mehriban xanım, liseyin əsas istiqamətlərindən biri də şagirdlərinizi beynəlxalq təhsil təcrübəsi ilə tanış etməkdir. Beynəlxalq təcrübələr hansı yeniliklərə yol açır?*

- Liseydə əsas istiqamətlərdən biri qloballaşan dünyada şagirdlərimizi beynəlxalq təhsil təcrübəsi ilə tanış etməklə özlərini dünyanın müxtəlif ölkələrinin iştirak etdiyi müsabiqələrdə eyni müstəvidə sınamaqdır.

Yanvar ayında Qətərdə Beynəlxalq “MUN” konfransında 13 şagirdimiz, 3 müəllimimiz iştirak etmişdir. Aprel ayında Türkiyədə keçirilən” Robert College İnternational Model United Nations” konfransında isə 2 müəllimimiz və 15 şagirdimiz iştirak etmiş, bütün dünyadan 300-dən çox şagirdin iştirak etdiyi illik beynəlxalq toplantıda şagirdlərimiz beynəlxalq təcrübə qazanmışlar.

Beynəlxalq təhsil arenasında milli təhsil brendi olmağı məqsəd seçmişik. Amalımız təhsilimizdən aldığımız güclə qlobal miqyasda tanınmaq və məmləkəti intellektimizlə qloballaşdırmaqdır.

**Şəmsiyyə Əliqızı,**
**Vüsal Cahanov (foto),**
**“İki sahil”**

# İnnovasiyayönlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması əsas hədəflərdəndir

**Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın uğurlu icrasında da əsas hədəf qeyri-neft amilinin üstünlüyünü təmin etmək, iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmlərini yaratmaq və inkişaf etdirməkdir. Belə inkişafın əsas dayaqlarından biri informasiya - kommunikasiya texnologiyalarıdır. İKT hərtərəfli sosial-iqtisadi tərəqqinin aparıcı qüvvəsi rolunu oynayır.**



Belə ki, yeni texnologiyalar ölkənin davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. Əsas hədəflərə çatmaq üçün innovativ, rəqabətqabiliyyətli və ixracyönlü İKT potensialının formalaşdırılması, ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi, kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi, vətəndaşların İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, "elektron hökumət"in inkişaf etdirilməsi və dövlət idarəçiliyinin bütün səviyyələrində elektron xidmətlərdən istifadə edilməsi, həmçinin mövcud İKT infrastrukturunun və İKT istifadəçilərinin informasiya təhlükəsizliyinin təmin edilməsi, yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması, görülən işlərə elmi dəstək verilməsi, ölkənin qlobal informasiya məkanına sıx inteqrasiyası vacibdir.

Bu kimi məqsədlər hər zaman olduğu kimi, bu gün də təhsilə diqqət və qayğını ön plana çəkir. Təhsili millətin gələcəyi kimi dəyərləndirən ulu öndər Heydər Əliyev bildirirdi ki, təhsil həyatımızın ən gərəkli, mühüm sahəsidir. Ümummilli Liderin bu fikirlərinin davamı olaraq dövlətimizin başçısı İlham Əliyev bildirir ki, o ölkələr yaxşı inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir. Ötən il ADA Universitetində keçirilən məzun günündə də bu mühüm məqam xüsusi qeyd edilmişdir ki, uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail ola bilərik: "Bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir."

Ölkəmizdə savadlılığın səviyyəsinin təxminən 100 faizə yaxın olması, təbii ki, uğurlu, təkmil islahatların, təhsilin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir. Təhsilə göstərilən diqqət büdcə xərclərimizdə də özünü təsdiqləyir. Büdcə xərclərində əsas yeri təhsil və müdafiə xərcləri tutur. Dövlətimizin başçısı bildirir: "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var."

Əvvəldə də qeyd etdiyimiz kimi, kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi günümüzün əsas çağırışları sırasındadır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, ölkəmiz son beş ildə orbitə 3 peyk çıxarıb: "Azərspace 1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace 2". Bu mühüm hadisələr dövlətimizin gücünü, həyata keçirilən siyasətin uğurlu gələcəyə hesablandığını təsdiqləyir. Ölkə Prezidenti İlham Əliyev üçüncü peykin orbitə buraxılması münasibətilə xalqa təbrikində qeyd etmişdir ki, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir. Cənab İlham Əliyev çıxışlarında bu mühüm məqamı da vurğulayır ki, əgər inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır.

Təhsilin inkişafında məktəblərin rolu inkaredilməzdir. Ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin artırılması üçün zəruri olan bütün imkanların yaradıldığı, ən əsası müasir dövrün İKT əsri olduğunu nəzərə alaraq, şagirdlərin kompyuterlərlə təminatının yüksək səviyyədə həyata keçirildiyi göz önündədir. Məlumdur ki, Heydər Əliyev Fondu təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirir. Bu layihələrin məqsədi ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə dəstək göstərməkdir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2 mindən artıq məktəb tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu günün əsas çağırışı budur: "Hər şagirdə bir kompyuter."

Artıq dərs ili sona çatıb. Növbəti dərs ilinin başlanmasına qədər yeni məktəblərin tikintisi, yaxud əsaslı təmiri prioritet məsələlər sırasındadır. Hər yeni dərs ili onlarla məktəbin əsaslı təmirdən sonra istifadəsi ilə yadda qalır. Təhsil göstəricilərində ildən-ilə nəzərə çarpan müsbət dəyişikliklər də deyilənlərin təsdiqidir.

Atılan hər addımda məqsəd təhsilə ayrılan xərclərdən səmərəli istifadə etmək, gənc nəslin dünyada gedən proseslərə uyğun, eyni zamanda, milli dəyərlərə əsaslanaraq inkişafını təmin etməkdir. Dövlətimizin gənclərin malik olduğu imkanlardan maksimum istifadə istiqamətində atdığı addımların davamlılığı qəbul olunan və uğurla icra edilən Dövlət proqramlarından da aydın görünür. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən hazırlanan və dövlətimizin başçısı İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasından gözlənilən nəticələr sırasında da gənclərin intellektual inkişafı və elmi fəaliyyətlərinin stimullaşdırılması, informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılması, beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi əsas yer tutur. Müasir dövrün sosial-siyasi reallıqlarının, dünyanın yeni çağırışlarının intellektual gənclik qarşısında qoyduğu mühüm vəzifələr əsas tutularaq ötən ilin sonunda Gənc alimlərin I qurultayı keçirildi. İntellektual gəncliyin innovativ potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılması, ölkəmizdə və xaricdə yaşayan gənc alimlərin fəaliyyətinin əlaqələndirilməsi istiqamətində işin gücləndirilməsi əsas hədəf kimi irəli sürüldü. Bütün bu addımlar ümumilikdə yenilikçi, müasir düşüncəyə malik olan gənclərin yeni texnologiyaların öyrənilməsinə və tətbiqinə marağının artırılması, ən əsası kadr hazırlığını iqtisadi inkişafın səviyyəsi ilə uyğunlaşdırmağa xidmət edir.

Dövlətimizin başçısı İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında Sərəncamları uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqləyir. Ali təhsil sisteminin rəqabətliliyinin artırılması öz növbəsində beynəlxalq əlaqələrin inkişafını, dünya təhsil sisteminə inteqrasiyanın sürətləndirilməsini bir tələb kimi ortaya qoyur. Təcrübə mübadiləsinin genişləndirilməsinin qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa böyük stimul verdiyi əldə olunan nəticələrdən də aydın görünür. Ölkə Prezidenti İlham Əliyevin gənclərin xarici ölkələrdə təhsili ilə bağlı Dövlət Proqramının uğurlu icrası da bu kimi məqsədlərə xidmət edir. Artıq bu Proqramın icrası müddətində 5 min tələbənin xarici ölkələrdə təhsili təmin edilmişdir. Onlar təhsillərini başa vuraraq, Vətənə qayıtmaqla əldə etdikləri təcrübələr əsasında ölkəmizin daha da inkşafına, tərəqqisinə öz töhfələrini verirlər.

Ölkə Prezidenti İlham Əliyevin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə", "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamları, "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərmanı da təhsilin inkişafına yönələn addımların davamlılığının göstəricisidir.

Qısa təhlil əsasında bu fikri böyük inamla qeyd edə bilərik ki, dövlətimizin başçısı İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirək" tezisi artıq reallıqdır. İKT sektorunda əldə olunan uğurlar isə bu əminliyə əsas verir ki, Azərbaycan bu gün dünyada təkcə neft-qaz ehtiyatlarına malik ölkə deyil, həmçinin yüksək səviyyəli elmi potensiala malik və informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunduğu innovasiyalar ölkəsi kimi tanınır. İqtisadiyyatın elmi əsaslara söykənməsi hərtərəfli inkişafa yol açmaqla yanaşı, Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından az itki ilə çıxmasını da şərtləndirdi.

Ən islahatçı ölkə kimi tanınan Azərbaycanda bu yeniliklər digər sahələr kimi, təhsili də geniş şəkildə əhatə etməklə qarşıdakı illər üçün nəzərdə tutulan hədəflərə yüksək səviyyədə nail olmağa böyük əsaslar yaradır. İnkişaf etmiş ölkələr sırasında addımlamaq istəyini ortaya qoyan ölkəmizin yeni iqtisadi inkişaf modeli beynəlxalq səviyyədə təqdir olunur. Uğurlarımız yaxın zamanlarda Azərbaycan təhsilinin keyfiyyət göstəricilərinə və rəqabətqabiliyyətliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəyinə əminliyi daha da artırır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

*Dövlət Turizm Agentliyinin sədri:*

## Azərbaycana Çindən turist axını gözlənilir



Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının Bakıda keçirilməsi çox vacib idi.

Trend-in məlumatına görə, bunu dünən 16-18 iyun tarixlərində Bakıda keçirilən Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının yekunları ilə bağlı keçirilən mətbuat konfransında Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev söyləyib.

Dövlət Turizm Agentliyinin sədri deyib ki, Bakıya 37 ölkədən turizm administrasiyalarının rəhbərləri gəlib: "Bu insanları Azərbaycanın mədəni irsi ilə tanış etmək vacib idi. Azərbaycana gələn qonaqlar çox məmnun qalıb. Nümayəndə heyətlərini Yanardağ kompleksinə aparacağıq".

F.Nağıyev qeyd edib ki, Çinlə bağlanan müqavilə əsasında Azərbaycana bu ölkədən çoxlu turist gələcək.

MÜSAHİBƏ

# Naxçıvan ərazisi müxtəlif filiz, qeyri-filiz və tikinti materialları ilə çox zəngindir

**Ümummilli lider Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsindən biri olan, muxtar respublikanın təbii ehtiyatlarını, onun yeraltı və yerüstü sahələrini elmi şəkildə öyrənmək məqsədi ilə yaradılan Təbii Ehtiyatlar İnstitutunda bu istiqamətdə nə kimi işlər görülür? İnstitutun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevlə söhbətimiz də məhz bu yöndə oldu:**



- Naxçıvan Muxtar Respublikasında elmin inkişafı istiqamətində həyata keçirilən tədbirlər təbii ki, kollektivimizi daha yaxşı işləməyə, qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirilməyə ruhlandırır. Qeyd edim ki, institutumuzda Mineral xammalın kimyası və texnologiyası, Sorbsiya prosesləri, Fiziki tədqiqatlar, Filiz və qeyri filiz yataqları, Hidrogeologiya və mineral sular və Seysmologiya laboratoriyaları, Coğrafiya, İqtisadiyyat və Seysmoloji xidmət şöbələri fəaliyyət göstərir. Qarşımızda duran əsas vəzifə isə Naxçıvanın təbii sərvətlərinin geoloji, kimyəvi, fiziki tədqiqi, hidroloji və landşaft şəraitinin öyrənilməsi, mineral xammalın istehsalının elmi əsaslarının işlənilib hazırlanması, sosial-iqtisadi infrastrukturların yerləşmə qanunauyğunluqlarının, regionun seysmik rejiminin, coğrafi şəraitinin və potensial enerji mənbələrinin öyrənilməsi istiqamətində elmi tədqiqatların aparılmasıdır ki, bunun üçün institutumuzda hərtərəfli şərait var. Şöbə və laboratoriyalarımız da müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təmin edilib. Son illər elmi-tədqiqat işlərinin genişləndirilməsi nəticəsində Naxçıvanda mineral xammalın kompleks emalının elmi əsaslarla işlənib hazırlanması, çoxkomponetli sistemlərdən qiymətli elementlərin sorbsiya metodu vasitəsilə ayrılmasının nəzəri və praktik əsaslarla işlənilməsi üzərində iş aparılır. Həmçinin yerli materiallar əsasında günəş enerji çeviricilərində istifadə edilən birləşmələrin sintezi və onların parametrlərinin müəyyən edilməsi, regionda filiz və qeyri-filiz yataqlarının, hidroloji şəraitin öyrənilməsi, mineral suların formalaşması qanunauyğunluqları və yeni hidrotermal mənbələrin axtarışı tədqiqatlara cəlb edilib.

***- Naxçıvanın təbii ehtiyatlarının öyrənilməsi istiqamətində institutda nə kimi işlər görülüb?***

- Bilirsiniz ki, Naxçıvan ərazisi müxtəlif filiz, qeyri-filiz və tikinti materialları ilə çox zəngindir. Burada molibden, mis, sürmə, polimetal filizləri, qeyri-filiz yataqlarından mərmər, gips, travertin, duz və digər təbii sərvətlər, eyni zamanda çoxlu mineral bulaqlar var. Şərur, Şahbuz, Şahtaxtı, Gümüşlü, Ağdərə, Parağaçay, Duzdağ, Nehrəm, Təzəkənd, Qızılvəng, Darıdağ, Nəsrivaz, Gilançay və digər ərazilərdə yerləşən sənaye əhəmiyyətli müxtəlif faydalı qazıntı yataqları mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublika ərazisində olan bir çox faydalı qazıntı yataqları tədqiqatlara cəlb edilib.

***- İnstitutun aparıcı laboratoriyalarından biri olan Mineral xammalın kimyası və texnologiyası laboratoriyasında hansı sahələrdə iş aparılır?***

- Mineral xammalın kimyası və texnologiyası laboratoriyasında filiz və qeyri-filiz yataqlarından götürülən nümunələrin tərkibinin analizi aparılmaqla yanaşı, mövcud mineral xammallar əsasında bir çox birləşmələrin alınması həyata keçirilir və onların tətbiq sahələri müəyyənləşdirilir. Laboratoriyada iki istiqamətdə iş aparılır. Birinci iş Darıdağ arsen filizi əsasında arsenin bir sıra birləşmələrinin alınması və sürmə filizinin kompleks emalı, digəri isə ağır metalların sürmə, arsen, molibden, germanium və qalayla əmələ gətirdiyi ikili, üçlü halkogenidlərinin su və üzvi həlledicilər mühitində sintezi və xassələrinin araşdırılmasıdır.

***- Sorbsiya prosesləri laboratoriyasının fəaliyyətindən danışmağınız da maraqlı olardı. Yəqin ki, bu laboratoriyada da görülən işlər az deyil...***

- Bu laboratoriyada da iki istiqamətdə iş aparılır. Birinci iş qiymətli elementlərin sorbsiya metodu ilə ayrılmasının nəzəri və praktik əsaslarının işlənib hazırlanmasıdır. Burada müxtəlif funksional qruplu ionitlərin quruluşlarının, iondəyişmə və turşu-əsas xassələrinin öyrənilməsi, ionitləri xarakterizə edən bir sıra vacib parametrlərin hesablanması nəzərdə tutulub. Eyni zamanda alınan nəticələrdən praktiki olaraq qiymətli və əlvan metal ionlarının sorbsiya metodu ilə zənginləşdirilməsində tətbiq edilir. İkinci iş isə Naxçıvan Muxtar Respublikasında perspektivli yataqlar olan təbii seolitin fiziki-kimyəvi xassələrinin öyrənilməsi, onların tətbiq sahələrinin müəyyənləşdirilməsidir.

***- Təbii seolitlərin digər minerallardan fərqi nədir?***

- Qeyd edək ki, təbii seolitlərin tətbiqinin üstünlüyü onların geniş yayılmasında, ucuzluğunda, bir neçə dəfə istifadə olunmasının mümkünlüyündə və bəzi xüsusiyyətlərinə görə sintetik minerallardan fərqlənməsindədir. Seolitlər effektiv enerjini qoruyan proseslərin inkişafında, kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılmasında, sənaye və urbaniləşmənin inkişafı nəticəsində yaranan ekoloji problemlərin həllində mühüm rol oynayır. Unikal tərkibinə görə təbii seolit heç bir əlavə və konservant olmadan uzun müddət saxlanılmasına baxmayaraq özünün qiymətli xassələrini qoruyub saxlayır.

***- Əhməd müəllim, hansı faydalı qazıntı yataqları tədqiqata cəlb edilib?***

- Muxtar Respublika ərazisində aşkar edilən filiz yataqlarından Parağaçay molibdenit, Gümüşlü qalenit, Darıdağ arsen və sürmə yataqlarını tədqiqatlara cəlb etmişik.

***- Bəs tədqiqatlardan başa çatanı varmı?***

- Qeyd edim ki, Parağaçay molibdenit və Gümüşlü qalenit filizləri işlənib. Parağaçay molibdenit filizinin tərkibinin öyrənilməsi, flotasiya metodu vasitəsilə onun faydalı komponetlərinin zənginləşdirilməsi, molibdenlə yanaşı digər elementlərin - mis, sink və qurğuşunun ayrılıb fərdi şəkildə əldə edilməsi üzərində araşdırmalar aparılıb. Parağaçay molibdenit filizində molibdenin qatılığı 0.74-0.92 %, həddində dəyişir. Filizin flotasiya metodu ilə zənginləşdirilməsindən 25.4%-li molibdenit konsentratı əldə edilib. Molibdenit konsentratının emalı üçün ayrıca texnologiya işlənib və onun əsasında, molibdenin bir sıra birləşmələri, ammonium molibdat, molibden (VI) oksid və onun nazik təbəqəsi, molibden (VI) sulfid və onun əsasında bir sıra tiomolibdatlar alınıb.

Gümüşlü qalenit filizindən isə qatılığı 21.2% olan qurğuşun konsentratı və konsentratın emalından qurğuşunun birləşmələri və metal qurğuşun alınıb. Hazırda Darıdağ arsen və sürmə filizlərinin kompleks emalı əsasında tədqiqatlar aparılır.

***- Bəs, tədqiqat işlərinin gedişi nə qədər vaxt aparır?***

- Əvvəlcə qeyd edim ki, tədqiqat işlərinin beş il müddətinə yerinə yetirilməsi nəzərdə tutulur. Məsələn, mənim (2015-2020) iş planım-sürmə filizlərinin kompleks emalıdır. Keçən müddət ərzində, filizin tərkibi müəyyən edilib, filizdən sublimasiya yolu ilə təmiz sürmə (III)sulfid və onun əsasında sürmə (III)oksid, sürmə (III) selenid, sürmə (III)tellurid alınıb. Eyni zamanda, hidrotermal metodla bu birləşmələrin nanohissəcikləri sintez edilib. Hazırda filizdən sürmə mineralı qələvilərlə (KOH, NaOH) məhlula keçirilib və alınan sürmə məhlulunun reduksiyasından sürmə tozu alınıb. Sürmə tozunun 900-1000°C temperaturda əridilməsindən isə sürmə metalı əldə edilib. Eyni zamanda, digər bir metodla kosmetikada qaş və kirpiklərin qaraldılması, həmçinin gözün müalicəsi üçün istifadə edilən təbii sürmə tozu alınıb.

***- Əhməd müəllim, institutda istehsalyönümlü tədqiqatlara da başlanılıb. Bəs bu sahədə nə kimi işlər görülüb?***

- Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin "Şorsu" müalicəvi palçığının hazırlanması ilə bağlı müvafiq tapşırığına əsasən, ötən il Mineral xammalın kimyası və texnologiyası laboratoriyamızda palçığın tərkibinin kimyəvi analizi aparılıb, qatılaşdırılma, qurudulma metodikası, texniki şərtləri hazırlanıb, həm krem, həm də quru toz formasında qablaşdırılaraq satış üçün əczaxanalara göndərilib. Həmçinin Biləv kəndi ərazisində yerləşən "zəylik dərəsi"dən götürülmüş alüminium süxuru analiz olunub. Nümunənin analizindən sonra tərkibi müəyyən edilib və süxurun emalı üçün texnologiyası işlənilib. Görülən işlər nəticəsində Biləv alüminium süxurundan xalq arasında zəy adı ilə tanınan kalium-alüminium zəyi, alüminium sulfat duzu və alüminium hidroksid, ammonium-alüminium zəyi alınıb. Eyni zamanda, Darıdağ termal suyunun quru qalığının alınması üçün şərait yaradılıb və məhsul istehsalına başlanılıb.

***- Təbii müalicəvi vasitə olan "Şorsu" palçığının istifadəsi ilə bağlı bir qədər geniş məlumat verməniz oxucularımız üçün də maraqlı olardı.***

- Qeyd edək ki, əvvəlki illərdə əhalimiz primitiv şəkildə istifadə etdiyi palçıq laboratoriyamızda müxtəlif əməliyyatlardan sonra gigiyenik qaydada qablaşdırılıb. Tərkibində maqnezium, natrium, kalsium, dəmir oksidi olan "Şorsu" müalicəvi palçığı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin məlumatına görə 17 adda-revmatizm, revmatoid artrit, fəqərə osteoxondrozu, deformasiyaedici, miozit, bursit, insult qalığı, nevrit, nevralgiya, prostatit və digər xəstəliklərin müalicəsində istifadə edilə bilər. Müalicənin applikasiya, tampon və ümumi palçıq vannası şəklində istifadəsi də mümkündür. Onu da qeyd edim ki, paketin və qutunun üzərində palçığın tərkibi, müalicəvi əhəmiyyəti və istifadə qaydası göstərilib.

***- Məlumatımıza görə, Qabıllı gil yataqlarında da tədqiqatlar aparılıb...***

- Bəli, Kəngərli rayonu ərazisində yerləşən Qabıllı kəndinin özündə və ətraf ərazilərində müxtəlif rəngli çox böyük gil yataqları var. Biz orda da tədqiqatlar aparmışıq. Maraqlısı budur ki, gillər çox təmizdir, yəni tərkibində digər qarışıqları yox dərəcəsindədir. Əvvəllər bu gillərdən müxtəlif məqsədlər üçün istifadə ediblər. Məsələn, təndirlərin hörülməsində, kərpic istehsalında, o cümlədən də yuyucu məhsul kimi istifadə edilib. Biz hesab edirik ki, bu gün sintetik yuyucu tozlardan fərqli olaraq, həmin gillərdən yuyucu material kimi istifadə edilə bilər. Həmçinin gildən üzün və saçların yuyulmasında istifadəsi də mümkündür ki, bu da sağlamlığımız baxımından daha əlverişlidir.

***- Əhməd müəllim, istərdik ki, uğurlarınız və gələcək planlarınız barədə də danışasınız...***

- Muxtar respublikanın təbii sərvətlərinin səmərəli istifadəsi istiqamətində institutumuzda aparılan tədqiqat işlərinin nəticəsində əməkdaşların kitab və monoqrafiya, xeyli sayda elmi əsərləri nəşr edilib. Həmçinin elmi-tədqiqat işləri ölkə elmi məcmuələr ilə yanaşı Türkiyə, Rusiya, Almaniya, ABŞ, İtaliya, Avstraliya və digər xarici ölkələrin nüfuzlu nəşrlərində əksini tapıb. Fəaliyyətimiz dövründə 2 qrant layihəsi udulub, 20-yə yaxın patent alınıb. Əməkdaşlarımızın "Cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsində ekologiya və ətraf mühit" adlı kitabı Rusiyanın paytaxtı Moskva şəhərində 31-ci Beynəlxalq Kitab Sərgi Yarmarkasında elmin və təhsilin inkişafında əhəmiyyətinə görə Təşkilat Komitəsinin "Qızıl medal" mükafatına, "Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri" kitabı isə 38-ci Beynəlxalq Paris Luvr kitab sərgisinin qızıl medalına və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən V Beynəlxalq Moskva Təhsil sərgisinin diplomuna layiq görülüb...

Gələcəkdə də muxtar respublikanın təbii ehtiyatlarından hərtərəfli istifadə etmək istiqamətində bizlər qarşısında qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səy və bacarığımızı əsirgəməyəcəyik.

✍ **Türkanə Bəylərli,**
*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsinin əməkdaşı*

# “Nəsimi İli: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği”

**Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi şəxsiyyətlərin sırasında orta əsrlərin nadir poeziya klassiki İmadəddin Nəsimi (1369-1417) önəmli yer tutur. Ədəbiyyat kəhkəşanına tarixin dumanları arasından boylananda görmək olur ki, özündə cahanları sığışdıran, özü isə cahana sığmayan bu böyük mütəfəkkir, ilk növbədə, mübarizliyi ilə diqqəti cəlb edir. Belə ki, məğrur şəxsiyyət, nadir istedad sahibi olan Nəsimi elmlilik, əxlaq, əqidə, inam nümunəsidir. O, sərpa soyulsa da heç vaxt Haqqdan qaçmayıb, həmişə Haqqa doğru addımlayıb. Əqidəsi yolunda edam olunduğuna görə, onu şəhid də, mərdlik və dönməzlik rəmzi də hesab etmək olar. Yeri gəlmişkən, qeyd edək ki, işğalçı Ermənistanla müharibə şəraitində olan ölkəmiz üçün belə örnəklərin təbliği olduqca vacibdir.**




Zəngin ədəbi irs yaratmış, dönməz məslək nümayiş etdirmiş İmadəddin Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, şəxsiyyətin hər cür şərtiliklər və ehkamlardan azad olunmasını tərənnüm etmişdir. O, üsyankar şeirləri ilə Haqqa qovuşan kamil insan olmaq uğrunda inadla mübarizə aparmışdır. Şairin fikrincə, ilahi varlıq səviyyəsinə yüksələn, böyük mənəvi sərvət olan kamil insan ədalətli cəmiyyət yaratmağın da real əsasını təşkil edir. Bir sözlə, yaradılmışlar arasında insanın ən ali varlıq olduğunu İmadəddin Nəsimi qədər irəli çəkən ikinci bir mütəfəkkirə rast gəlmək olduqca çətindir. Bu mənada İmadəddin Nəsimi irsi bəşəriyyətin sərvətidir.

### Nəsimi yaradıcılığının himni

İmadəddin Nəsimi haqqında bir sıra əsərlər yazmış tədqiqatçı-şair, Əbülfət Həsənoğlunun fikrincə, hələ dövründə Azərbaycanla yanaşı, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada geniş şöhrət qazanmış İmadəddin Nəsimi yaradıcılığının himni ilahi eşq və bu eşqdə vüsala qovuşmağa layiq olan kamil insandır: “Şairin zəngin irsi hər bir insana anladır ki, yüksək elmlilik, dini və mənəvi-əxlaqi idealları qoruyub inkişaf etdirmək yolu ilə insan kamilliyə qovuşa bilər. Kamil insan əsl həqiqəti dərk edir və nəfsini idarə etməklə mənən saflaşaraq ilahi eşqində vüsala hazır olur. Təəssüf ki, ilahi eşq yolunu tutmuş, yüksək dini etiqada malik İmadəddin Nəsimi fəlsəfi fikirlərinə görə sovetlər dönəmində dinsiz kimi qələmə verilmişdir. Halbuki Nəsimi səmavi kitabların, o cümlədən Quranın öyrənilməsi ilə Allaha qovuşmağın və yaradana layiq olmağın mümkün olacağını söyləmişdir. Nəsiminin 1963 beytini (“İraq divanı”) şərh etmiş bir araşdırıcı kimi deyə bilərəm ki, onun poeziyasında Allaha və onun kəlamı olan müqəddəs Qurani-Kərimə xələl gətirəcək heç bir kəlməyə təsadüf etməmişəm. Elə götürək hürufiliyin aparıcı simalarından biri olan İmadəddin Nəsiminin ədəbiyyatımızda müəyyən mübahisələrə səbəb olan “Ənəlhəqq”lə bağlı fikirlərini. Təsəvvüfdə eşq, insan ruhunun Allaha qovuşub onda əriməsi arzusudur. “Ənəlhəqq” isə bu arzuya çatmağın ifadəsidir. Yəni, “ənəlhəqq”i mənəm haqq kimi anlayıb ona müstəqim məna vermək olmaz. “Ənəlhəqq” bir bənzətmədir, məcazdır və onun dini mənası Allahın təbliğidir, onu əyani olaraq insanlara dərk etdirməkdir. “Ənəlhəqq” söyləmək o kamil insanlara qismət olur ki, onlar öz içində nəfsi boğub mələksima olmaqla “fəna-fillah” məqamına yetişsinlər. Belə insanları Allah mükafatlandıraraq qəlblərini nurlandırır. Bu məqam “bəqabillah” adlanır və “ənəlhəqq” (haqq məndədir, haqla haqq olmuşam və ya ilahi nurlanmaya yetişmişəm) söyləməyə imkan verən bir haldır. Onu da qeyd edək ki, adi dindarlar tərəfindən qəbul edilməyən “ənəlhəqq” Haqq aşiqləri tərəfindən Quranın “Ən-Nur” surəsinin 35-ci ayəsi ilə əsaslandırılır: “Allah göylərin və yerin nurudur. O, nur üstündən nurdur. Allah dilədiyi bəndəni öz nuruna qovuşdurur”. Bu mənada, Nəsimi yaradıcılığı başdan-başa Qurani-Kərimin surələri, ayələri, ayrı-ayrı ifadələri üzərində şifrələnmiş fəlsəfi poeziyadır”.

Burada bir məqama da toxunmaq istərdik. Cəmi 48 il ömür sürmüş İmadəddin Nəsimi millətlər, xalqlar, dinlər, təriqətlər arasında heç bir fərq qoymayıb. Müxtəlif dinlərə, müxtəlif xalqlara qarşı hörmət və ehtiram, daha doğrusu, tolerant baxışlar onun yaradıcılığında tam şəffaflığı ilə öz əksini tapıb.

İsamısan, Musamısan?
Ya Yusifi - Kənanmısan?
Vallah ki, canım canmısan,
Mən səndən üz döndərmənəm!

Bu isə o deməkdir ki, İmadəddin Nəsimi bir dini digərindən üstün tutmur, kəbə kilsə arasında fərq görmür. Onun fikrincə, hansı millətə, hansı dinə, hansı təriqətə məsub olmağından asılı olmayaraq bütün insanlar Allah qarşısında bərabərdir. Onun üçün “kamil insan” və “cahil adam” vardır. Şübhəsiz, bütün bu fikirlər bəşər övladına multikultural yanaşmanın bir fəlsəfi təcəssümüdür.

### Heyrətlənməmək mümkün deyil

İmadəddin Nəsimini oxuyarkən heyrətlənməmək qeyri-mümkündür. Misralarındakı məna yükündən əlavə dilinin təmizliyi oxucunu heyrətləndirir. Sanki XIV əsrin şairi deyil, səninlə danışan, səninlə söhbət edən, öz müasirindir.

Üzün məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Dilin təmizliyinə, beytin poetik qüdrətinə fikir verirsinizmi? Şairin dilimizin dil vahidlərindən necə yüksək səviyyədə istifadə etməsinə heyrətlənməmək mümkün deyil. Bəli, o, dilimizdən sistemli şəkildə, ardıcıllıqla, məhəbbətlə istifadə edib. “Məndə sığar iki cahan, mən bu cahana sığmazam”. Bu misranın səkkiz kəlməsindən altısı öz sözlərimizdir... Özü də necə? Sadədən sadə, anlaşıqlı və başadüşülən. Hətta dövr və tarix baxımından Məhəmməd Füzulidən əvvəl yaşamasına baxmayaraq, çox mürəkkəb bir yol keçmiş İmadəddin Nəsiminin dili poetik fikirlərlə, gözlənilməz təşbehlərlə zəngin olan xələfindən daha sadə, daha rəvan və tezqavranandır. Şair bəzən öz fikirlərini atalar sözü və məsəllərlə də rövnəqləndirib. Məsələn, “Doğruya zaval yoxdur” atalar sözündən Nəsimi bir qəzəlində belə istifadə edib:

Dedilər, miskin Nəsimi, doğruya yoxdur zaval,
Müddəilər qalib oldu hazır olgil başınə.

Bəli, tale ona Azərbaycan dilində yazan çox böyük və müqtədir sənətkar titulu qismət etdi. Nadir incilər yaratdığı bu lətafətli dillə o, dövrün-zamanın çox ciddi tələbi olan ərəb-fars dilində yazıb-yaratmağa qarşı etibarlı bir sipər çəkdi. Bu mənada Nəsimi yaradıcılığına nəzər saldıqda aydın görünür ki, onun hər şeiri bir möhtəşəm əsərdir. İmadəddin Nəsiminin elmi-fəlsəfi düşüncəsinin kamilliyini, müstəsna əqidə və iradə sahibi kimi böyüklüyünü bir yana qoysaq belə, bir şair kimi onun misilsiz xidməti, fikrimizcə, məhz həm də budur. Prezident İlham Əliyevin bildirdiyi kimi, elə buna görə də Nəsimi ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

### Dəyərlər sisteminin təntənəsi

Şübhəsiz, Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar “Nəsimi İli” elan edilməsi klassik söz-sənət adamına göstərilən yüksək ehtiram və məhəbbətin ifadəsidir. Təkcə ona görə yox ki, bu, 3 dildə (ərəb, fars və türk) mükəmməl divanlar ərsəyə gətirmiş, həyatı əfsanəyə dönmüş bir qüdrətli söz ustasının halal haqqıdır, bəlkə, daha çox ona görə ki, aradan altı əsr yarım keçməsinə rəğmən, bu gün də dəyərini itirməyən bir sənətkarın söz dünyasına, daha geniş anlamda isə bənzərsiz həyat və yaradıcılığına, onun milli və bəşəri ideyalarına verilən qiymətdir. Bu, həm də məsləkindən dönməyən bir insanın istər həyatın bütün dönəmlərində yüksək diqqətə malik olduğunun sübutu kimi, istərsə də Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə məhz Nəsiminin timsalında bəxş etdiyi dəyərlər sisteminin təntənəsi baxımından diqqət çəkir. Belə ki, Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir. Bəli, İmadəddin Nəsimi və onun kimi şəxslər millətimizin mənəvi sərvəti olub, ölkəmizin, xalqımızın dünyaya tanıdılması üçün vizit kartıdır. Bu mənada Nəsimini öyrənmək, təbliğ etmək Azərbaycan xalqının zəngin mədəni irsini bütün dünyaya çatdırmaq üçün yeni imkanlar açıb. Fəlsəfi görüşləri ilə kamil insan simvoluna çevrilmiş, böyük ideallar şairi Nəsimi irsinin XXI əsrdə dünyada baş verən ictimai-siyasi proseslər fonunda yenidən öyrənilməsi, araşdırılması və təbliği bu baxımdan da aktualdır.

Digər tərəfdən, bədxah qonşularımızın xalqımıza, ölkəmizə hər cür şər və böhtan atdığı bir dövrdə İmadəddin Nəsiminin parlaq şəxsiyyəti və idealı fonunda cari ildə beynəlxalq aləmin diqqət mərkəzində olmaq, şübhəsiz, ümummilli bir dəyərdir. Yeri gəlmişkən, qeyd edək ki, artıq dünya miqyasında İmadəddin Nəsiminin adının əbədiləşdirilməsi istiqamətində də müəyyən addımlar atılmaqdadır. Məsələn, İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar Beynəlxalq Astronomiya İttifaqı (BAİ) kiçik planetlərdən birinə onun adının verilməsi barədə qərar qəbul edib. Şübhəsiz, bu istiqamətdə digər addımların da atılacağı istisna deyil.

Artıq tədqiqatçılarımız İmadəddin Nəsimi irsini araşdırmaqda davam etməkdədirlər. Nə xoş ki, son zamanların araşdırmalarının nəticəsi olaraq bu görkəmli mütəfəkkirin yeni əlyazmaları tapılıb. Məsələn, bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimov böyük Azərbaycan şairi İmadəddin Nəsiminin “Divan”ının - lirik şeirlər toplusunun Ankaranın Milli Kitabxanasında saxlanılan iki əlyazma nüsxəsinin surətini əldə edib. Tədqiqatçı-alim, Seymur Nəsirov isə apardığı tədqiqatlar əsnasında Misirin paytaxtı Qahirədə yerləşən “Misir Kitablar Evi”ndə (Dər əl-Kutub əl-Misriyyə) İmadəddin Nəsiminin Azərbaycan və fars dillərində olan əlyazmalarını aşkar edib. Şübhəsiz, bu zəngin ədəbi irsin tədqiqi Nəsimi yaradıcılığının öyrənilməsi istiqamətində nəsimisevərlər üçün yeni üfüqlər açır.

Hazırda İmadəddin Nəsimi poeziyası müxtəlif xarici dillərə (ərəb, alman, ingilis, fransız, italyan, rus, türk və vyetnam və s.) tərcümə olunaraq beynəlxalq aləmdə daha geniş yayılmaqdadır. Bütün bunlar Qoca Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaradan İmadəddin Nəsimi kimi mütəfəkkirin bir daha dünya miqyasında tanıdılmasında, onun milli və bəşəri ideyalarının təbliğində böyük əhəmiyyət kəsb edir. Bu mənada hazırda Nəsiminin təbliği istiqamətində atılan hər bir addım təqdirəlayiqdir.

**Qvami Məhəbbətoğlu,**
***“İki sahil”***

***Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.***

## Pakistan səfiri Bakı Ali Neft Məktəbində



Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Said Xan Mohmand Bakı Ali Neft Məktəbində (BANM) olub və ali məktəbin rektoru Elmar Qasımovla görüş keçirib.

BANM haqqında geniş məlumat verən rektor Elmar Qasımov iki ölkə arasında mövcud olan əlaqələrdən bəhs edərək təhsil sahəsində əməkdaşlığın vacibliyini xüsusi olaraq vurğulayıb. Rektor bir pakistanlı tələbəyə ali məktəbin təqaüdünün verilməsini təklif edərək növbəti tədris ilindən etibarən BANM-də bu ölkənin tələbələrinin təhsil almalarından məmnun olacaqlarını bildirib.

Səfir Said Xan Mohmand səmimi qəbula görə rektora öz təşəkkürünü bildirib. O, Pakistanın və Azərbaycanın qardaş dövlətlər olduğunu, iki ölkə arasında ikitərəfli münasibətlərin gündən-günə daha da inkişaf etdiyini söyləyib. Həmçinin səfir region üçün mühüm əhəmiyyət kəsb edən sahələr üzrə mütəxəssislər hazırlayan ali məktəbin gördüyü işləri və BANM tələbələrinin uğurlarını yüksək qiymətləndirdiyini vurğulayıb.

Səfir hər iki ölkə arasında təhsil əlaqələrinin genişlənməsi istiqamətində səylə çalışdıqlarını bildirərək təqaüd təklifinə görə rektora təşəkkür edib.

Sonda xatirə şəkli çəkdirilib.

**Zahid Rza, *"İki sahil"***

## DAHA 1017 ŞƏHİD VƏRƏSƏSİNƏ BİRDƏFƏLİK ÖDƏMƏ VERİLƏCƏK



Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir.

Trend-in məlumatına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki Komissiya daha 687 şəhidin 1017 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edib. Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Ümumilikdə 12 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib ki, bu günədək artıq 10 472 şəhidin 15 498 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul olunub.

Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 85,4 faiz icra olunub.

*Müdafiə Nazirliyi:*

## Ermənistanın işğal edilmiş ərazilərimizdə keçirdiyi təlimlər tam nəzarətimiz altındadır



Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin iyunun 17-də başladığı "genişmiqyaslı" hərbi təlimlər Ordumuzun ön xətt bölmələri tərəfindən xüsusi müşahidə vasitələri və cihazları ilə ciddi izlənilir və tam nəzarətdə saxlanılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında bildirilib: "Dəfələrlə olduğu kimi, qarşı tərəf bu dəfə də cüzi sayda şəxsi heyət və texnikanı cəlb etməklə keçirdiyi məşğələni "genişmiqyaslı" təlim kimi təqdim etməyə çalışır. Düşmən tərəfinin təlimlərə guya 10 min şəxsi heyət və çoxlu sayda döyüş texnikası cəlb etməsi barədə yaydığı məlumatın tam əksinə, təqdim edilən videodan da görünür ki, ermənilər həmişə olduğu kimi yenə də özünəməxsus saxtakarlıq etməklə öz ictimaiyyətini aldadırlar".

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**Zok 27-yə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11120AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 11.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 18.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu;
Neftçilər prospekti 73;
SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:**
Müsayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 337 (daxili)
kqrporativ mobil nömrəsi: +99450 417 71 01
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı:
kamilH.musayev @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 18.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər

**Müasir dövrdə hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirilir. Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, onun vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsilə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur. Bu mənada Azərbaycanın enerji təhlükəsizliyinin əsas istiqamətlərindən biri də ölkənin elektrik enerjisinə olan ehtiyacının fasiləsiz təmin edilməsindən ibarətdir. Bu məqsədlə vaxtilə qarşıya qoyulmuş əsas vəzifələrdən biri də bu məsələnin həll edilməsi idi. Nəticədə qısa müddətdə ölkəmiz nəinki elektrik enerjisinə olan tələbini daxili imkanlar hesabına ödəməyə başlamaqla bu sahədə idxalın dayandırılmasına, həmçinin onun ixracının da həyata keçirilməsinə nail oldu.**



Lakin isti günlərdən birində daha dəqiq desək, 2018-ci ilin iyulun 3-də Azərbaycan demək olar ki, işıqsız qaldı. Bununla da 2 gün ərzində elektrik enerjisi təminatında yaranan fasilələr, əhalinin tıxaclarda, metro tunellərində, dayanacaqlarda qalmasına, əlavə təşviş, həyəcan və narahatlıq keçirməsinə səbəb oldu. Qəza zamanı ölkənin 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yarandı.

Aparılan araşdırma zamanı baş vermiş qəzanın əsas səbəblərindən biri kimi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin qəzaya lazımi səviyyədə hazır olmamağı, fəaliyyətində mövcud olan texniki və bir sıra digər çatışmazlıqlar üzündən hadisəyə adekvat reaksiya verə bilməməyi, habelə nəticədə ölkənin enerji sistemində qəzaya gətirib çıxaran bir sıra digər nöqsanlara yol verdiyinin məlum olması Prezident İlham Əliyevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyevi işdə yol verdiyi nöqsanlara görə Balababa Rzayevlə əvəz etməsi ilə ölkəmizin elektrik enerji təsərrüfatında yeni dövr başlandı.

Bu istiqamətdə görülən işlər artıq 3 aydan sonra öz bəhrəsini verməyə başladı. Belə ki, "Azərenerji"nin 2018-ci ilin dekabr ayının 4-də yaydığı məlumatda iyul ayında baş vermiş məlum hadisənin təkrarlanmaması üçün sentyabr ayından etibarən ölkə elektrik enerjisi sistemi üzrə "itirilmiş" generasiya güclərinin bərpası, sabit generasiya güclərinin təmin edilməsi məqsədilə "Azərenerji" ASC tərəfindən enerji sistemin kritik vəziyyətdən çıxarılması üçün hazırlanaraq Dövlət Başçısına təqdim edilən "Reabilitasiya proqramı" əsasında artıq ciddi nəticələr əldə olunduğu deyilirdi.

Artıq aprel ayının sonuna olan məlumata görə, ötən ilin iyul ayında baş verən qəza nəticəsində enerji sisteminin çökməsinə səbəb olan Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyası istismar müddətini başa vurduğu üçün ölkə başçısının göstərişi ilə ən müasir səviyyədə yenidən qurularaq bərpa edilir. Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan və respublikada elektrik enerjisinə olan tələbatın 43 faizini təmin edən 8 bloklu "Azərbaycan" İstilik Elektrik Stansiyasında bütün parametrlər üzrə tikinti, yenidənqurma və bərpa işləri aparılır. Bu günə qədər tətbiq edilən "Reabilitasiya Proqramı" çərçivəsində "Azərenerji" ASC tərəfindən stansiyanın 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə 60 meqavat yük məhdudiyyəti aradan qaldırılıb. Həmçinin 500 kilovoltluq Açıq Paylayıcı Qurğunun 2-ci dövrəsinin 7 saylı enerji bloku və 1 saylı əlaqə avtotransformatorunun bütün elementləri yeni avadanlıqlarla əvəzlənərək istismara verilib: "Nəticədə 7 saylı enerji blokunun gücü 250 meqavatdan maksimum həddə - 310 meqavata çatdırılıb. Ümumilikdə "Reabilitasiya Proqramı" çərçivəsində "Azərbaycan" İstilik Elektrik Stansiyasında 3 il ərzində turbinlərin, generatorların, rele mühafizə sisteminin, sexlərin, yarımstansiyaların, 500 və 330 kilovoltluq hava xətlərinin, əks-qəza avtomatikasının tamamilə yenidən qurulub bərpa edilməsi nəzərdə tutulub.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti "Reabilitasiya Proqramı" çərçivəsində digər elektrik stansiyalarında olduğu kimi, "Səngəçal" Elektrik Stansiyasında da "itirilmiş" gücün bərpa edilməsi istiqamətində işləri davam etdirir. Qeyd edək ki, ötən ilin payızında qəbul edilən "Reabilitasiya Proqramına" qədər "Səngəçal" Elektrik Stansiyasında mövcud 18 aqreqatdan 4 ədədi ümumiyyətlə, işləmirdi, qalan 14 aqreqat isə kəsirlə işləyirdi. Məhz həmin 14 aqreqatın mühərriklərində aparılan təmir işləri nəticəsində 30 MVt "itirilmiş" güc bərpa edilib. Eyni zamanda, işləməyən 4 aqreqatdan biri yenisi ilə əvəz edilib, digər aqreqatın isə ehtiyat hissələri gətirilərək sazlama işləri aparılıb və işə qoşulub. Həmin işləməyən 2 aqreqatın işə düşməsi nəticəsində əlavə 32 MVt "itirilmiş" güc bərpa edilib. Bununla da "Reabilitasiya Proqramı" çərçivəsində "Səngəçal" Elektrik Stansiyası üzrə itirilmiş gücün bərpası 62 MVt-a çatdırılıb. Ümumilikdə isə ilin sonuna qədər "Səngəçal" ES-də aparılan işlər nəticəsində 90 meqavat "itirilmiş" güc bərpa olunacaq və bununla da Bakı da daxil olmaqla ölkənin elektrik təchizatının etibarlığı və dayanıqlığı üçün daha bir addım atılmış olacaq.

Ancaq "Reabilitasiya Proqramı"ndan bəhs etdikdə onu da diqqətə çatdırmaq lazımdır ki, bu istiqamətdə görülən işlərin aktuallığı məlum qəza hadisəsindən sonra gündəmə gəlməyib. Bir neçə il bundan əvvəl hazırlanıb təsdiqlənən Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsində bildirilib ki, mövcud stansiyaların və infrastrukturun köhnəlməsi yenidənqurmaya və yeni stansiyaların tikintisinə ehtiyacı artırır: "Təbii qazla işləyən stansiyanın orta istismar müddəti 25 il olsa da, 2014-cü il ərzində Azərbaycan Respublikasının elektrik enerjisi üzrə istehsal həcminin 56 faizi 30 ildən artıq müddətdə istismar olunan stansiyalarda əldə edilib. İstehsal gücünün 14 faizi isə istismar müddəti 10-30 il olan stansiyalarda istehsal edilib. Bu isə həmin qurğulardan bəziləri üçün növbəti illərdə investisiya qoyuluşunu zəruri edir. Yenidənqurma və modernləşdirmə işləri bu stansiyaların istismar müddətini uzada bilər. Belə ki, 2400 MVt gücündə olan və ya öz istehsal gücünün təqribən üçdə birindən istifadə edən "Azərbaycan" İstilik Elektrik Stansiyası son vaxtlar modernləşdirilmişdir. Buna baxmayaraq, növbəti beş il ərzində əlavə modernləşdirmə işlərinin aparılmasına tələbatın yaranacağı ehtimal edilir".

Göründüyü kimi, bu sahədə, o cümlədən "Azərbaycan" İstilik Elektrik Stansiyasında (baxmayaraq ki, son illərdə bu istiqamətdə işlər görülmüşdü) yenidənqurma və modernləşdirmə işlərinə tələbatın artacağı məlum imiş.

Sənəd üzrə digər bir diqqətçəkən məqam isə elektrik enerjisi istehsalında illik dövlət investisiyalarının azalmasıdır. Son on ilə diqqət yetirdikdə bu nəqletmə və paylama üzrə investisiyalarla müqayisədə özünü daha qabarıq formada göstərir. Hərçənd ki, beynəlxalq təcrübədə elektrik enerjisi sektoru üzrə investisiyalarda istehsal əsas yer tutur.

Bununla belə, ölkə üzrə elektrik enerjisinin ümumi istehsal həcminin ehtiyat gücü digər ölkələrlə müqayisədə kifayət qədər çoxdur. Göstəricilər onu deməyə əsas verir ki, bu sahə üzrə artım tempinin 2020-ci ilədək, yəni ölkədə elektrik enerjisinin istehsal gücü ümumilikdə 5122 MVt-a çatana qədər davam edəcəyi gözlənilir. Lakin Strateji Yol Xəritəsində bu barədə qeyd edilib ki, 2009-cu ildən bəri pik vaxtlarda yüklənmə səviyyəsinin yüksək templə artması hesabına növbəti illərdə elektrik enerjisinin istehlakının da böyük həcmdə artacağı gözlənilir. Bildirilib ki, bunun nəticəsi olaraq, 2009-cu ildə 46 faiz olan ehtiyat gücü həcminin 2015-ci ildə 34 faizədək azaldığını nəzərə alsaq, ehtiyat gücün 2020-ci ilədək 14 faiz səviyyəsinə qədər azalması proqnozlaşdırılır. Bu da beynəlxalq miqyasda qəbul edilmiş 25 faizlik təhlükəsizlik səviyyəsindən aşağıdır. Bu mənada mütəxəssislərin hesablamalarına əsasən, növbəti 5-10 il ərzində təhlükəsiz enerji təchizatını təmin etmək məqsədilə əlavə 1000 MVt istehsal gücünün yaradılması üçün ciddi investisiya qoyulmasına zərurət yaranacaq.

Təhlillər göstərir ki, ölkənin enerji təminatı sisteminin daha da gücləndirilməsi prioritetdir. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatında növbəti illərdə iqtisadi artım tempinin sürətlənəcəyi proqnozlaşdırılır, eyni zamanda, ölkəmiz uzun müddətdir ki, qonşu Rusiya, Gürcüstan, İran və Türkiyəyə elektrik enerjisi ixrac etməklə yanaşı, artıq may ayının 1-dən Gürcüstan və Türkiyədən tranzit etməklə Yunanıstana, həmçinin analoji olaraq Gürcüstan, Türkiyə və Bolqarıstandan tranzit keçməklə Rumıniya və Macarıstana da elektrik enerjisinin nəqlinə başlayıb, paralel olaraq elektrik enerjisinə tələb də artacaq.

"Azərenerji" ASC-nin məlumata görə, cari ilin birinci rübü ərzində 6 151 milyard kVts elektrik enerjisi istehsal edilib ki, bu da ötən ilin eyni rübü ilə müqayisədə 153 milyon kVts və ya 2,5 faiz çoxdur. Belə ki, ötən ilin birinci rübündə 5.998 milyard kVts elektrik enerjisi istehsal edilmişdi. Bundan əlavə, elektrik enerjisinin ixracı da ötən ilin mart ayı ilə müqayisədə artırılıb. Əgər 2018-ci ilin mart ayında qonşu ölkələrə 131 milyon kVts elektrik enerjisi ixrac edilmişdisə, 2019-cu ilin mart ayında 161 milyon kVts ixrac edilib. Bu isə 30 milyon kVts və ya 23 faiz artım deməkdir. 2018-ci ilin birinci rübü ilə müqayisədə 2019-cu ilin birinci rübündə elektrik enerjisinin istehlakı 3,41 faiz artıb. Ən əsası isə ötən ilin mart ayı ilə müqayisədə bu ilin mart ayında istehlak 6,1 faiz çox olub ki, bu da kifayət qədər ciddi artım olmaqla yanaşı, elektrik enerjisinə artan tələbatın getdikcə yüksəldiyini göstərir. Nəticə etibarilə sadaladığımız amillər bu sahədə yeni hədəfləri formalaşdırır.

**Mənsumə Babayeva, *"İki sahil"***

*Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.*

# Demokratiyaya keçid dövrü nağılı bitdi...



**Sevinc Azadi**

Göründüyü kimi, özünü xalqa demokratik rejim kimi sırımağa çalışan Nikol Paşinyan iqtidarının əslində daha çox diktatura mahiyyətinə malik olması hər keçən gün daha əyani şəkildə təsdiqini tapmaqdadır. Ən müxtəlif sahələrdə kobud surətdə pozulan hüquqlar, daxili və xarici siyasətdə yaşanan çoxsaylı problemlər cəmiyyətin Nikol Paşinyanın hakimiyyətindən narazılığını daha böyük sürətlə artırmaqdadır. Özü üçün yaranan təhdidi nəzərə alan hökumət sosial şəbəkələr, media üzərində ciddi nəzarət həyata keçirmək istəyir. Məlum olduğu kimi, sosial şəbəkələrdə feyk profillərin aşkarlanması və tədbir görülməsi ilə bağlı Ermənistan baş naziri Nikol Paşinyan MTX-nin direktoru Artur Vanetsyana təlimat verib. Paşinyan guya ictimai rəyin manipulyasiya edilməsinə milyonlar sərf edən dairələrin olduğunu deməklə, Milli Təhlükəsizlik Xidmətinin direktoruna bildirib ki, aralarında aparılan söhbət nəticəsində onun rəhbərlik etdiyi qurumun bu məsələdə konkret nəticələr əldə edəcəyinə əmindir. Belə çıxır ki, Paşinyan ona qarşı müxalif mövqedən çıxış edənləri neytrallaşdırır. Belə ki, Paşinyanın "feyk nyus"-"saxta xəbər" bəhanəsi ilə yerli mediaya və sosial şəbəkəyə hücum çəkməsi, feysbukdakı bir satirik səhifə müəllifinin həbs edilməsi və "saxta xəbərlər"lə bağlı təhlükəsizlik xidməti orqanına müraciət etməsi ekspertlər tərəfindən söz və mətbuat azadlığına zərbə, eləcə də internet azadlığının pozulması kimi qiymətləndirilir.

Məsələ burasındadır ki, Paşinyan müxalif siyasi düşərgədə mübarizə apararkən xalq onun siyasi fəaliyyətindən, çağırışlarından məhz Ermənistan kütləvi informasiya vasitələri, eləcə də sosial medianın köməyi ilə xəbər tuturdu. Necə deyərlər, Paşinyan baş nazir postuna yüksəlməsinə görə həm də məhz mediaya minnətdar olmalıdır. Baş nazir postuna seçilənə qədər istər ənənəvi mediadan, istərsə də , internet KİV və sosial şəbəkədən bəhrələnərək, "xalqın etimadını qazanmış" Paşinyan bütün bunları unudur və artıq müstəqil medianı, azad fikir ifadə edən sosial şəbəkə səhifələrini belə özü üçün "təhlükə" hesab edir.

İnformasiya Azadlığı Mərkəzinin rəhbəri Şuşan Doydoyan "panorama.am" saytına verdiyi açıqlamada baş nazirin media ilə bağlı qərarını tənqid edərək bildirib ki, "bu cür formatda çıxışı qəbuledilməz hesab edir. Bu təhlükəli nəticələrə gətirib çıxara bilər." Onun sözlərinə görə, hökumət mətbuata ünvanlanan üzrxahlıq kimi açıqlama ilə çıxış etməlidir ki, o bu göstərişdə KİV-i nəzərdə tutmayıb və onlar ifadə etdikləri fikrə görə təhlükədə olmamalıdır: "Sözügedən mesaj isə barmaqla kobudcasına KİV-i göstərmək deməkdir. Hökumətin birinci rəsmi şəxsinin informasiyanın qarşısının alınması ilə bağlı göstərişini qəbuledilməz hesab edirəm."

Erməni jurnalistlərinin fikrincə, indiki halda hökumətin demokratiyadan, insan hüquqlarından danışmağa mənəvi haqqı yoxdur. Ölkədə addımbaşı mətbuat nümayəndələrinin hüquqları pozulur. Qəzetlər və saytlar müxtəlif bəhanələrlə bağlanılır. Ermənistan Avropa Şurası qarşısında söz azadlığının qorunmasına dair öhdəlik götürüb. Avropa Şurası Ermənistanda KİV azadlığının səviyyəsinin qaldırılmasını dəfələrlə tələb edib. Lakin illərdir cəmiyyət bunun əksini müşahidə edir. Xatırlatmaq yerinə düşər ki, 2018-ci ilin sentyabr ayında "Yerevan.Today" saytına və "Qraparak" qəzetinə basqın siyasi dairələrdə də birmənalı qarşılanmamışdı. Hüquq mühafizə orqanlarının bu addımı informasiya terroru adlandırıldı. Erməni jurnalist Qriqor Atanesyan qeyd etmişdir ki, mətbuatın işi əldə etdiyi informasiyanı yaymaqdır. Paşinyan nüfuz qazana bilməməsinin günahını KİV-də axtarır. Bu isə kökündən yanlışdır.

Göründüyü kimi, Ermənistan mediasında söz və mətbuat azadlığı təhlükə astanasındadır. Lakin maraqlı burasıdır ki, insan haqları, söz və mətbuat azadlığı ilə bağlı daim məruzələr edən beynəlxalq təşkilatlar və siyasi dairələr bununla bağlı heç bir reaksiya bildirməyə tələsmir, susmağa üstünlük verirlər. Halbuki həmin "söz azadlığı" carçıları ölkəmizdə gedən müsbət dəyişiklik və inkişafa baxmayaraq, guya, ölkədə media və söz azadlığının pozulması ilə bağlı qərəzli hesabat və yazıları tirajlayırlar. Bu da, əslində, insan haqları kimi ali dəyərlərin artıq beynəlxalq təşkilatlar tərəfindən siyasi alətə çevrildiyinin və ikili standartların bariz nümunəsidir.

# SÜNİ İNTELLEKT: sivilizasiyanın gələcəyi, yoxsa məhvi?

***"Süni intellekt" dedikdə, göz qabağında dərhal tanış obrazlar canlanır: "həyatını" məqsəd naminə tərəddüdsüz qurban verməyə hazır olan Terminator, Ayzek Azimovun "Mən, robot" hekayələr silsiləsi və eyniadlı Hollivud filmi, nəhayət, məşhur Britaniyalı "Maşın". Biz tez-tez "robot" və "intellekt" məfhumlarını səhv salaraq süni intellekti fiziki libasa bürüyürük. Görünür, elə bu səbəbdən dünya şöhrətli alimlər əndişə keçirərək 2010-cu ildən bəri mütəmadi şəkildə "maşınlar bəşəriyyəti məhv edəcək" təhlükəsindən danışırlar. Nədir bu təhlükə?***

Süni intellektin ilkin formaları ilə insanlar hər gün üz-üzə gəlirlər. Sadəcə bunu dərk edən yoxdur. Gəlin, süni intellektin istifadəsi ilə bağlı bir neçə misal gətirək (o cümlədən maşınların təlimi, yəni maşınlarda kənardan dəstək olmadan müstəqil şəkildə öyrənə bilən alqoritmlərin qurulması). 2014-cü ildə "The Associated Press" məlumat agentliyi "Automated Insights" şirkəti tərəfindən tərtib olunmuş "Wordsmith" adlı avtomatik maliyyə hesabatı hazırlayan texnologiyadan istifadə etməyə başladı. Proqram əvvəlcə maliyyə verilənlərini təhlil edir, onları müqayisə edir, şirkətlərin hesabatlarındakı açar rəqəmləri aşkarlayır, daha sonra isə bütün bunları insan dilinə çevirir. Siz dünyasında "maşın" tərəfindən yazılan hekayəni insan tərəfindən yazılandan ayırd edə bilməzsiniz. Amma yox, bilərsiniz: maşın səhv buraxmır və barmaq izi qoymur. "Wordsmith" minlərlə maliyyə xəbəri yazır, o olmasaydı bütün bunlar da olmazdı. Wordsmith insanın çata bilmədiyi sürət və miqyasla işləyir. Bizim texnologiyamız jurnalistlərin işini daha da maraqlı hala gətirir", - deyə, Automated Insights şirkətinin aparıcı əməkdaşı Ceyms Koteki qeyd edir. Bununla belə, "Wordsmith" dayanmadan öyrənməyə davam edir. Bu, belə baş verir: hazırlanmış hissələr seçməli qaydada yoxlanır və təkmilləşdiriləcək yerlər işarələnir. Proqram həmin qeydləri nəzərə alaraq öz alqoritmini müvafiq şəkildə dəyişdirir. Wordsmith tam mənada süni intellektin qurulması yolunda mühüm addımlardan biri kimi maşın təliminin klassik örnəyidir. Lakin bu, sadəcə aysberqin gözə görünən hissəsidir. Word proqramında, smartfonlarda quraşdırılmış köməkçilər də özünü daim təkmilləşdirən maşın təliminin bir başqa örnəyidir.

Süni intellekt yaradanlar üçün daha bir perspektivli sahə özünü sürücüsüz idarə edən avtomobillərdir. "Google" şirkətinin yaratdığı və ABŞ yollarında sınaqlardan keçməyə davam edən pilotsuz avtomobillər haqqında xəbərləri hər həftə oxuyuruq. Şübhəsiz ki, amerikan şirkətinin əlində hökumətə göstərmək və bununla fəxr etmək üçün yetərincə uğur var: ABŞ-ın təkcə bir regionunda ötən il ağıllı avtomobillər 10000 mildən artıq məsafə qət edərkən bir dəfə də olsun yol hərəkət qaydasını pozmayıb və ya qəzaya uğramayıb.

"İnsan xətalarının sayı azaldıqca (avtomobillərin sürətini avtomatik yavaşlatma və dayandırma texnologiyalarının tətbiqi sayəsində) xəsarət alan insan və maşınların sayı da azalacaq. Ölüm hadisələrinin sayı azalacaq. Sığorta haqqı da (nəzəri baxımdan) azalacaq. Bu o deməkdir ki, mənim də yol hərəkət hadisələrində zərər çəkən insanların hüquqlarını qoruyan bir hüquqçu kimi işimin həcmi azalacaq", - bu, Nyu-Yorklu Erik Terkivitsin süni intellektin yol hərəkət hadisələrində zərər çəkən insanların hüquqlarını qorumaqla məşğul olan hüquqçuların biznesinə təhlükə yaratması məsələsinə həsr olunmuş bloqda yazdıqlarıdır. Sözünə davam edərək o deyir ki, özü də sürücüdür və Google şirkətinin can atdığı gələcəyi o da bir sürücü olaraq dəstəkləyir. Bəli, o da yeni iş axtarmaq məcburiyyətində qalacaq və bunu yolların təhlükəsiz gələcəyi naminə ödəyəcəyi qiymətdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, avtomobil qəzalarında hər il 1300000 adam həlak olur. Dəhşətli rəqəmdir! Erik isə yaxın 15-20 il ərzində işini itirəcək yeganə peşə sahibi deyil. Sürücülər, yükdaşıyanlar, çağrı mərkəzlərinin, qaynar xətlərin operatorları və daha neçə-neçə peşələr - süni intellekt yaratmaqla məşğul olan bir çox şirkət bütün bunları əvəz etmək üçün çalışır.

Müasir alimlərin "süni intellekt" məfhumunu necə şərh etmələrinin elə özü də maraqlıdır. Bu termin haqqında vahid bir anlayış yoxdur, amma süni intellektin məntiqlə üç açıq-aşkar növü olduğu barədə tam olmasa da, yenə də bir fikir birliyi var:

*1. Məhdudlaşdırılmış süni intellekt (Artificial Narrow Intelligence). Bu tip intellekt sizi, misal üçün, şahmat və ya preferansda uda bilər, amma ona "torpağı yemək olarmı" sualını verdikdə cavab ala bilməyəcəksiniz.*

*2. Ümumi süni intellekt (Artificial General Intelligence). Süni intellektin bu növü insan intellektinə maksimal yaxındır. O, məlumatları təhlil edir, digər maşınlarla ünsiyyətə girir, özünü təlimdən keçirir.*

*3. Süni super intellekt (Artificial Superintelligence). Bu intellekt növü o qədər inkişaf edib ki, insan intellektindən fərqlənir. Başqa sözlə, bizim intellektimiz həmin super intellektin motivlərini anlamaq üçün yetərincə inkişaf etmiş deyil.*

Bu gün bəşəriyyət süni intellektin birinci tipinin əsas prinsiplərini artıq uğurla mənimsəyib. "Google" avtomobilləri, "Wordsmith" sistemi, bir nöqtədən digərinə getmək üçün ən optimal marşrut seçə bilən peyk naviqasiyası və hətta dediyinizi anlaya bilən Siri buna bariz örnəklərdəndir. "Google" axtarış sisteminin özü də böyük məhdudlaşdırılmış intellektdir. Maşın təlim prinsiplərindən istifadə edərək o, bəzən insan müdaxiləsi olmadan da özünü daim inkişaf etdirir. Növbəti addım ümumi süni intellektin yaradılması olacaq. Hazırda bu məsələnin üzərində bir neçə iri şirkət və alimlər qrupu çalışır.

**Sevinc Məmmədova,**
***"İki sahil"***

# Azərbaycanda yeni turizm mövsümü başlayır



Ölkəmizdə turizm sektorunda aparılan islahatlar, bu sahə ilə bağlı keçirilən beynəlxalq tədbirlər, dünyanın müxtəlif yerlərində təşkil olunan sərgilər Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, turizm sahəsinin inkişafı son illərdə prioritet istiqamətlərdən birinə çevrilib. Zəngin tarixi-mədəni irsə və əlverişli təbii şəraitə malik ölkəmizdə turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və digər növləri ilə bağlı fəaliyyəti daha da genişləndirilib. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarından istifadə etməklə "ASAN Viza" sisteminin tətbiqi nəticəsində Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə 30 günlük birdəfəlik elektron vizanın 3 iş günü müddətində, eləcə də elektron vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciət edildikdə 3 saat ərzində təcili vizanın verilməsi həyata keçirilir. Həmçinin 2016-cı ildən etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan istehlak mallarına "Tax-free" sisteminin tətbiqi, eləcə də 2017-ci ildən başlayaraq mütəmadi olaraq keçirilən ticarət festivalları ("Shopping festival") ölkəyə səfər edən xarici turistlər tərəfindən məmnunluqla qarşılanır.

Görülən bu işlər ölkəmizə gələn turistlərin sayına təsirsiz ötüşməyib. Statistik məlumatlara əsasən, Azərbaycana istirahətə gələn xarici vətəndaşların sayı ilbəil artır. Belə ki, cari ilin yanvar-may aylarında ölkəmizə gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artım müşahidə olunub. Ən önəmli cəhətlərdən biri isə odur ki, ölkəmizə üz tutan turistlər yalnız paytaxt Bakını görməklə kifayətlənməyərək regionlara da üz tuturlar. Hazırda bölgələrdəki turistyerləşdirmə obyektlərində böyük sıxlıq yaşanması da deyilənləri təsdiqidir. Ölkəmizə gələn turistlər səfərləri zamanı bölgələrdəki tarixi abidələrə, maraqlı yerlərə xüsusi üstünlük verirlər. Paytaxtda və bölgələrdə yaradılan rahat yollar, dünyaca məşhur hotel brendləri, istirahət və əyləncə kompleksləri, sağlamlıq mərkəzləri müxtəlif ölkələrdən insanları Azərbaycana cəlb edir. Yaradılmış əlverişli biznes və investisiya mühiti nəticəsində hazırda ölkəmizdə müasir tələblərə uyğun qurulmuş Tufandağ və Şahdağ Qış-Yay turizm kompleksləri, Şamaxı Safari Ekoparkı, 563 mehmanxana, o cümlədən məşhur dünya brendlərinin beşulduzlu hotelləri və onlarca digər turizm obyektləri fəaliyyət göstərir.

Sağlamlıq turizmi digər turizm növlərindən bir çox cəhətlərinə görə fərqlənir. Amma ən əsas cəhətlərindən biri odur ki, belə mərkəzlər ilin bütün fəsillərində, fasiləsiz çalışır. Bu isə o deməkdir ki, bu tip turizm xidmətlərindən istifadə etmək üçün ölkəmizə turistlərin gəlməsi mövsümi xarakter daşımır. Bu cür mərkəzlərdə müasir şəraitlə təbii-müalicəvi üsulların tətbiqi həm də əvvəllər müalicə üçün xarici ölkələrə üz tutan Azərbaycan vətəndaşlarının ürəyincədir.

Son illərdə Azərbaycanda mütəmadi olaraq müxtəlif beynəlxalq idman və mədəniyyət tədbirlərinin keçirilməsi, eləcə də davamlı olaraq yeni əlverişli beynəlxalq reyslərin açılması turizmin inkişafını daha da sürətləndirir.

Dövlət dəstəyi sayəsində ölkəmizdə turizm sahəsində beynəlxalq əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə beynəlxalq mədəniyyət tədbirləri, o cümlədən kino günlərinin böyük təntənə ilə keçirilməsi buna bariz nümunədir. Azərbaycanın ev sahibliyi etdiyi Beynəlxalq Turizm Filmləri Festivalı, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hər il Qəbələdə təşkil olunan Beynəlxalq Musiqi Festivalı da dünyanın bu sahə üzrə nüfuzlu tədbirlərindəndir.

Beləliklə, Azərbaycan dövlətinin turizm sahəsinin inkişafı ilə bağlı qəbul etdiyi proqramlar, həyata keçirilən layihələr, bu sahəyə yatırılan investisiyalar, ölkəmizin coğrafi mövqeyi ilə yanaşı xalqımızın qonaqpərvərliyi də şübhəsiz ki, ölkəmizə gələnlərdə bura bir daha dönmək istəyi yaradır.

**Sevinc Azadi,**
***"İki sahil"***

# Yoqanın faydaları



Yoqanın mənəvi istirahət fəaliyyəti kimi populyarlığı dünyada gün keçdikcə artmaqdadır. Yoqanın faydaları hansılardır? Yoqa asan tətbiq oluna bilən və cazibədar bir fiziki fəaliyyət formasıdır və bir yoqa proqramına qoşulmaq sağlam olmaq istəyən yaşlı yetkinlər üçün yaxşı bir seçim ola bilər.

Bəzi araşdırmalar göstərir ki, müxtəlif yoqa təcrübələri insanın ümumi sağlamlığı və fiziki sağlamlığının müxtəlif aspektlərini inkişaf etdirə bilər.

Yoqa üzərində edilən araşdırmalar göstərir ki, 8 həftəlik intensiv yoqa təcrübəsi romatoid artrit simptomlarını azaldıb.

* Onurğaya tətbiq edilən məşqlərlə duruş pozuqluqları aradan qaldırılır.

* Əzələlərin hərəkəti və güclənməsi nəticəsində ağrı və yorğunluğa səbəb olan yığılmış laktik turşu atılır.

* Hərəkətli asanaslar nəticəsində (yoqa pozaları zamanı) tərləmə olur. Bu sayədə toksinlər dəridən atılır və dəri sağlam olur.

* Nəfəs məşqləri nəticəsində qabırğa qəfəsini əhatə edən əzələlər güclənir, qabırğa qəfəsi genişlənir, ağciyər potensialı artır, tənəffüs tənzimlənir və tənəffüs sistemi inkişaf etdirilir.

* Xroniki ağrılar müalicə edilə bilər.

* Yoqa zamanı edilən asanas hərəkətlər daxili orqanlara masaj effekti verir. Bu yolla ifrazat bezləri daha yaxşı işləyir və hormonları balanslaşdırır.

* Çəki tarazlığı təmin edilir.

* Yuxu keyfiyyəti yaxşılaşır.

* Yenə ağciyərdə toksinlər nəfəs alaraq atılır.

* Qan axınını sürətləndirir. Bu, oksigen qəbulunu artırır və qan təzyiqini normallaşdırır.

* Yoqada əsasən ürək ətrafını əhatə edən əzələlər çalışır. Beləliklə, bel hərəkət edir, uzanır və güclənir.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

# "Azneft" İstehsalat Birliyi

**strukturuna daxil olan qurumların 2019-cu il üçün tamponaj sementinə tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11119AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təklifinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla. 18.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçının müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər 236 AZN (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN
AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçı 10 000,00 AZN məbləğində bank təminat təqdim etməlidir*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş)%-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB

**Əlaqələndirici şəxs:** Səməd Əsədov
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: samad.asadov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 18.07.2019-ci il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# "Xiaomi" şirkəti 64 MP'lik arxa kameralı Redmi smartfonu üzərində çalışır



Bir neçə müddət bundan öncə məlum olmuşdu ki, "Samsung" şirkəti 64 MP-lik kameraya sahib Galaxy A70s smartfon modeli üzərində çalışır. İndi isə məlum olub ki, bu cür kameraya sahib smartfon üzərində həmçinin Xiaomi şirkəti də çalışır. Bu barədə Gagadget saytı xəbər verib.

Milli.Az technote.az-a istinadən bildirir ki, Ice Universe ləqəbi ilə tanınan məşhur insayderin verdiyi məlumata əsasən Xiaomi şirkəti əsas kamera modulu 64 MP-lik olacaq Redmi smartfon modeli üzərində çalışır. Məlumata əsasən həmin kamera yaxşı işıqlandırılmamış mühitdə 16 MP-lik keyfiyyətdə fotolar çəkə biləcək.

Bununla yanaşı həmin kamera modulu real zaman ərzində 100 dB-ə (desibel) kimi HDR-ı, 1080p (saniyədə 480 kadr) keyfiyyətində slow-mo videoların çəkilişini və Super PD PDAF texnologiyasını dəstəkləyəcək. Təəssüflər olsun ki, 64 MP-lik kameraya sahib olacaq smartfonun özü barəsində ətraflı məlumat yoxdur. Nəzərə alsaq ki, bu cür kamera modulunun irimiqyaslı istehsalına bu ilin ikinci yarısında start veriləcək, həmin kameraya sahib smartfonu noyabr və ya dekabr ayında gözləmək lazımdır.

# Saç tökülməsinə qarşı təbii çarələr



Son zamanların ən çox rast gələnən problemlərdən biri də saç tökülməsidir. Bu problemi mütəxəssislər genetik olaraq qiymətləndirsələr də, çarəsinin olduğunu da vurğulayırlar. İstər qadın, istərsə də kişilərdə rast gələnən saç tökülməleri insanları ən çox narahat edən problemlər sırasındadır. Ancaq bu problemin həlli mümkündür. Dermatoloqlar problemin aradan qaldırılmasının yollarının olduğunu deyirlər.

Bu zaman bir sıra müxtəlif dərman vasitələrinin, çoxsaylı prosedurların olduğunu nəzərə alaraq, onu da qeyd etmək yerinə düşər ki, düzgün həyat tərzi, düzgün qidalanma orqanizmin sağlamlığına xidmət etdiyi kimi, saçlarımızın da sağlamlığına birbaşa təsir göstərən amillər sırasında ilk yerdədir. Çünki zərərli qidalarla bəslənmək, yanlış həyat tərzi sinir sistemimizin pozulmasına şərait yaradır və bu da saçlarımızın tökülməsinə səbəb olur.

**İSPANAQ**

Qanda dəmir əskikliyi yarandığı zaman saç kökləri zəifləyir və sonda saçlar tökülərək seyrəkləşir. İspanaq isə saç köklərinin sağlam və möhkəm olmasına kömək edə biləcək vitamin və minerallarla zəngindir.

**Lobya**

Çinko saç tökülməsinin qarşısını alan və müalicəsində effektli olan mühüm bir maddədir. Aparılan araşdırmalar saç tökülməsi yaşayan insanlarda çinko səviyyəsinin aşağı olduğunu göstərir. Çinkoya isə ən çox lobyada rast gəlinir. Çinkonun zəngin olduğu digər qidalar yumurta, ispanaq və qırmızı ətdir.

**ŞİRİN KARTOF**

Əgər saç tökülməsi problemi yaşayırsınızsa, beta karotin qəbulunu artıra bilərsiniz. Buna görə də sizə təklif edilən ən yaxşı vasitə şirin kartofdur.

**PORTAĞAL SUYU**

D vitamini orqanizmimizin təməl ehtiyaclarından biri hesab olunur. Yay aylarında bu vitamini günəşdən alsaq da, qışda belə bir üstünlüyümüz olmur. Bir çox insanlarda D vitamini problemi müşahidə olunur. Saç tökülməsi ilə mübarizədə D vitamini ilə zəngin olan portağal suyundan istifadə edə bilərsiniz.

**YUMURTA**

B7 vitamininin çatışmazlığı saç tökülməsinə, sinir xəstəliklərinə və dəri problemlərinə səbəb olur. Bu problemin qarşısını almaq istəyirsinizsə yumurtadan faydalana bilərsiniz.

**Nilufər Qaçayevə, *"İki sahil"***

# Tər ifrazı orqanizmi hansı xəstəliklərdən azad edir?

**Bəzi insanlar çalışırlar ki, tərləməsinlər. Lakin əslində tərləmək yaxşıdır və hətta orqanizm üçün xeyirlidir. Fərqi yoxdur idmanla məşğul olursunuz və ya gəzirsiniz, bütün hallarda tərləmək bədəni sağaldır.**



### Detoksikasiya

Son illər tərləməyin orqanizmin detoksuna təsir etdiyi haqqında çoxlu sayda araşdırmalar aparılıb. Tərləmək bədənimizi bütün növ toksin maddələrdən, ağır metallardan və çirklənmələrdən təmizləyir.

### Ağır metallar

Ətrafımızda adi şeylər belə toksin metallar daşıyır. Bura aiddir: yediyimiz qida məhsulları, içdiyimiz su və aldığımız hava və s. Aparılan bir çox araşdırmalara görə, bəzi metallar orqanizmdə ciddi problemlərə səbəb ola bilər.

Orqanizm həddindən artıq maddələrlə yükləndiyində oynaq və əzələlərdə ağrılara, yorğunluğa, baş ağrılarına və s. səbəb olur. Tər ifrazı bu problemi həll etməyə kömək edir. Tədqiqatların nəticələrinə əsasən deyə bilərik ki, tər damcılarında kadmium 24, nikel 19 dəfə qurğuşun 16 dəfə və alüminium 3 dəfə çox olur, nəinki böyrəklərdən ifraz olunan mayedə. Deməli, tər ilə orqanizmdən daha çox ağır metallar xaric olunur.

### Bisfenol A

Bisfenol A endokrin sistemini məhv edən kimyəvi maddə hesab olunur. "Brigham" və "Women's Hospital"-dan olan tədqiqatçılar 2013-cü ildə apardıqları araşdırmaya əsasən bildiriblər ki, bisfenol endokrin funksiyaya, hipofizə (orqanizmin böyüməsinə və inkişafına təsir göstərən daxili sekresiya vəzisi) təsir edir. Ekspertlər hesab edirlər ki, belə bir təsir sonsuzluğa səbəb ola bilər.

Alimlər qanı, sidik sistemini və tər vəzlərini tədqiq edəndə müəyyən ediblər ki, Bisfenol A maddəsi tərdə 16, sidiyin tərkibində 14, qanda isə 2 dərəcə aşkar olunub. Bu o deməkdir ki, tər ifrazı bu maddənin xaric olunmasına daha çox rol oynayır.

### Ftalat maddəsi

Ftalat maddəsi plastmas məmulatların tərkibində olan kimyəvi maddədir. Bu maddə anadangəlmə deffektlərin əmələ gəlməsinə səbəb olur.

2003-cü ildə aparılan araşdırma göstərmişdir ki, bu maddənin xaric olunması üçün ən yaxşı üsul tər ifrazıdır.

### Davamlı üzvi kirləndiricilər

İnsektisidlər (zərərverici həşəratı qırmaq üçün kimyəvi maddələr, zəhərlər) və bir çox təhlükəli maddələr var ki, bu da orqanizm üçün təhlükəlidir. Davamlı üzvi kirlənmələrin ən aşağı səviyyəsi belə immun sisteminə, reproduktiv pozulmalara, endokrin sistemin pozulmasına və anadangəlmə deffektlərin yaranmasına səbəb ola bilər.

Bu toksin kirlənmədən xilas olmağın ən yaxşı üsulu tərləməkdir.

### Soyuqdəymə və qrip ilə mübarizə

Tərləmək hələ qədim zamanlardan soyuqdəymə zamanı tez sağalmaq üsulu hesab olunub. Tədqiqatçılar da bu cür fikirlə razıdırlar. 2013-cü ildə aparılan araşdırmalar göstərib ki, təbii antibiotik duzlu az turşulu tərin tərkibində aktivləşir.

### Böyrəklərdə daşın əmələ gəlmə riskinin azalması

Tər ifrazı bədəndə olan artıq duz və kalsiumu xaric edərək böyrəklərin sağlam fəaliyyətinə kömək edir. Bu da öz növbəsində böyrəklərdə daşın əmələ gəlməsinin qarşısını alır. Bundan başqa tərləmək su itkisinə səbəb olur və buna görə də böyrəklərdə daş əmələgəlmə riskini aşağı salmaq üçün təkcə tərləmək deyil, su içmək də vacibdir.

### Yaddaşın yaxşılaşması

Ekspertlər müəyyən ediblər ki, idman zalında tərləyənə qədər fiziki aktivlik göstərmək yaddaşın güclənməsinə səbəb olur. Tədqiqatın nəticəsinə əsasən məlum olub ki, cəmi 20 dəqiqə intensiv məşq yaddaşı 10% artıq gücləndirməyə kömək edir.

Bunun üçün isə istənilən idman növü ilə məşğul olmaq olar.

### Daha təmiz üz dərisi

Tərləmək sizin üzünüzdə məsamələrin açılmasına səbəb olur və çirkdən təmizləyir. Tər özü ilə çirki xaric edərək dərinin təmizlənməsinə kömək edir.

İstənilən növ məşqlər tərləmək üçün yaxşı üsuldur. Məsələn, yürüş, qaçış, üzmək və s.

Əsas odur ki, tərlədiyiniz zaman bədəninizin itirdiyi suyu ona qaytarasınız. Yadda saxlayın, gün ərzində sizin içməli olduğunuz suyun miqdarı hər 1 kiloqram çəkiyə 30 ml olmalıdır.

**Könül Əliyeva,**
***"İki sahil"***

# "Huawei" öz əməliyyat sistemini istifadəyə verəcək

Çinin "Huawei" şirkəti "Hongmeng" adlı öz əməliyyat sistemini bir neçə ay ərzində istifadəyə verəcək. Bu haqda şirkətin vitse-prezidenti Endryu Uilyamson deyib.

Milli.Az ICTnews-a istinadən bildirir ki, onun sözlərinə görə, indi sözügedən əməliyyat sistemi Çində sınaqdan keçirilir və yaxın vaxtlarda "Huawei" bununla bağlı öz ticarət brendini qeydiyyatdan keçirəcək. Mayda ABŞ Ticarət Nazirliyi "Huawei" şirkətini milli təhlükəsizliyə təhdidə görə qara siyahıya daxil edib. Çin şirkətinə ABŞ istehsalçılarından texnologiya və komponent satın almaq və Vaşinqtonun icazəsi olmadan ABŞ-da biznes fəaliyyəti aparmaq qadağan edilib.

## ELAN:

***Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsinin 101-ci qrup III kurs tələbəsi Quliyev Rüstəm Teymur oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın rəhbərliyi, Baş ofisinin kollektivi və Həmkarlar İttifaqı Komitəsi tanınmış ictimai xadim, Azərbaycanın neft emalı sənayesinin təşkilatçılarından biri
**Akimov Kamil Əlisoltan oğlunun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Baş ofisinin kollektivi və Həmkarlar İttifaqı Komitəsi Yaşayış sahələri üzrə iş şöbəsinin böyük mühəndisi Nəzrin Kəsəmənliyə, əzizi
**Şahmar İsmayılovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İnstitutun İcraya nəzarət və kargüzarlıq şöbəsinin rəisi İlhamə İbrahimovaya, əmisi
**Rafik Əliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Azərbaycan Respublikasının əməkdar mühəndisi, "Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktorunun məsləhətçisi
**Akimov Kamil Əlisoltan oğlunun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin əməyin mühafizəsi üzrə rəis müavini İsmayıl Hüseynova, anası
**Mahizər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktoru Ramil Əliyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi tanınmış ictimai xadim, Azərbaycanın neft sənayesinin təşkilatçılarından biri, Azərbaycan Respublikasının əməkdar mühəndisi, "Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktorunun məsləhətçisi
**Akimov Kamil Əlisoltan oğlunun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 19.06.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8215
İndeks: 0151, Sifariş: 1938